www.kitabxana.net
Milli Virtual Elektron Kitabxana

"Gənclərin Virtual Multikulturalizm Mərkəzi" N 10 (65 - 2016)

TOFIQ SEYIDZADƏ

“Hər an ölümlə üzbəüz”

Araşdırma: qəhrəmanlıq səlnməsi

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2016

Yeni Yazarlar və Sənətçilər Qurumu
www.yysq.org

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxana

"Gənclərin Virtual Multikulturalizm Mərkəzi"

Elektron kitab N 10 (65- 2016)

Bu elektron nəşr Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun (#AzGF) maliyyələşdirdiyi, Yeni Yazarlar və Sənətçilər Qurumunun həyata keçirdiyi "Gənclərin Virtual Multikulturalizm Mərkəzi" kulturoloji-intellektual layihəsi çərçivəsində www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana tərəfindən nəşrə hazırlanıb və yayılır.

Kulturoloji layihənin bu hissəsini qismən maliyyələşdirirlər:

Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu: http://youthfoundation.az

Yeni Yazarlar və Sənətçilər Qurumu: http://www.yysq.org

TOFIQ SEYIDZADƏ

"Hər an ölümlə üzbəüz"

Araşdırma: qəhrəmanlıq səlnməsi

YYSQ tərəfindən e-nəşrə hazırlanıb. Milli Virtual-Elektron Kitabxananın e-nəşri. Bakı - 2016

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

"Gənclərin Virtual Multikulturalizm Mərkəzi" silsiləsindən olan

e-kitablarla buradan tanış olun:

http://kitabxana.net/?oper=e_kitabxana&cat=174

Feysbuk səhifəmiz:

Sosial şəbəkələrdə Azərbaycan multikulturalizminin və tolerantlığının təbliği ilə bağlı fəaliyyətlərin genişləndirmək, bu sahələr üzrə İnternet resurslarımızı - elmi-intellektual sərvətlərimizi, araşdırma, tədqiqat işlərini təbliğ etmə üçün ayrıca virtual resurs burada: https://www.facebook.com/YeniYazarlar

DİQQƏT!

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin və resurs yaradıcılarının razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

Hacı Tofiq Seyidzadə

HƏR AN ÖLÜMLƏ ÜZBƏÜZ

Bakı, YYSQ - 2016

Bakı-2016

RƏYÇİLƏR: Nizami Xudiyev
Professor, əməkdar elm xadimi,

Cəlil Xəlilov,

Respublika Veteranlar təşkilatının sədr müavini,

siyasi elmlər üzrə fəlsəfə doktoru, ehtiyatda olan polkovnik

İbadulla Məmmədov ADPU-nun dosenti,

Redaktorlar: Abbas Hacıyev və Əbülfəz Muxtar oğlu

NDU-nun dosentləri

Kitabda əslən Azərbaycan multikultural məkanlarından biri - Qax rayonundan doğulmuş, Elşad Şabanovun mənalı ömür yoluna işıq salınır. Müəllif bu kitabında xalqımızın qəhrəmanlıq göstərən, Əfqanıstan torpağında bir azərbaycan övladı kimi bütün çətinliklərə sinə gərən Azərbaycanın başını uca edən kəşfiyyat və döyüşlərdən üzü ağ çıxan polkovnik Elşad Şabanovun bütün keyfiyyətlərini gənc nəslə çatdırmaqda böyük iş görüb. Bu günkü gənclərimizə əsl vətənpərvər və mübariz döyüşçülərin döyüş yollarını göstərmək çox vacibdir. Bu günkü vətənpərvər gənclərimiz belə döyüşçülərdən nümunə götürsələr yaxşı olar. Polkovnik Elşad Şabanov özgə torpaqlarda həm SSR DTK-nin tapşırıqlarını vaxtında və gecikdirmədən yerinə yetirib, həm də döyüşçü, kəşfiyyatçı kimi çox qiymətli iş görüb. Özgə torpaqlarında dağlarda, daşlarda gecəli-gündüzlü yatmayıb tapşırığı yerinə yetirmək hər kəsə nəsib olmur və hər zabit bu işləri görməyi bacarmır.Qəhrəmanlıq öz-özünə gəlmir, gərək onu göstərməkdən ötrü həm cəsarətli, həm qorxmaz həm də vətənpərvər olasan. Bütün bu xüsusiyyətlər bu kitabda göstərilən Polkovnik E. Şabanovda var.

Kitab sanballı faktlara əsaslanaraq yazılıb. Veteranlarımız və oxucularımız tərəfindən inanırıq ki, bu kitab oxunaqlı olacaq.

Tofiq Seyidzadə. **"Hər an ölümlə üzbəüz"**

Hacı Tofiq Mirhəsən oğlu Seyidzadə

Türk dünyası Araşdırmalar Uluslar arası Elmlər Akademiyasının "Fəxri professoru", Avropa Mətbu evinin "Qızıl Medalçısı" A.M. Nağıyev adına Milli Dəyərlərimizin Qorunması Təşkilatının "Fəxri jurnalisti", "Xalqın nüfuzlu ziyalısı-İlin alimi", "Tərəqqi" medallı, "Qızıl qələm müka- fatçısı", AJB və AYB-nin üzvü, 64 kitab müəllifidir.

ÖN SÖZ

Tarixçi tədqiqatçı alim professor Hacı Tofiq Seyidzadənin qələminə mən yaxşı bələdəm. Belə ki, BVM iştirakçıları haqqında arxivlərdən arayıb axtarıb, onlar barədə 12 kitab yazıb. Çox gərgin əmək sərf edən H.T. Seyidzadə veteranlarımızı mətbuatda yaxşı işıqlandırır. RVT-da keçirilən tədbirlərdə fəal iştirak edir.

"Hər an ölümlə üzbəüz" kitabda Polkovnik Elşad Şabanovun keçdiyi döyüş yollarını müəllif olduğu kimi işıqlandırır. Xatırladaq ki, 1985-87 ci ildə SSR DTK-nın müşaviri kimi Elşad Şabanov Əfqanıstanın qaynar nöqtələrində Pənsir, Bədəşxan Zabul vilayətlərində Əfqanıstan Xüsusi Xidmət orqanlarının silahlı müxalifətə, banditizmə və terrorçuluğa qarşı apardığı xüsusi döyüş əməliyyatlarının təşkilatçısı və rəhbəri olub. Əf-qanıstandakı xüsusi əməliyyatlara rəhbərlik edərək Sovet ordusu xüsusi təyinatlıları ilə birlikdə Pakistan Əfqanıstandan ərazilərində müqavimət göstərən terrorçu qüvvələrə və silahlı müxalifətə hərbi yük daşıyan maşın karvanlarının məhv edil- məsində fəal iştirak edən Elşad Şabanov döyüşlərdə 3 dəfə yaralanıb, müalicə olunduqdan sonra yenidən DTK-nın Baş Kəşfiyyat İdarəsinin tapşırıqlarını layiqincə yerinə yetirib.

Kitabda o cümlədən bildirilir ki, polkovnik E.Şabanov dö yüşlərdə mücahidlərin Pakistan ərazisindən Əfqanıstana keçirmək istəyən maşın karvanını məhv edərək ABŞ-da istehsal olan STİNGER tipli raket kompleksi və digər silah növlərini ələ keçirib.

Polkovnik E. Şabanov barəsində kitabında faktlar əsasın da qələmə aldığı kimi müəllif bildirir ki, 2 il Əfqanıstan dağ- larında gecəli-gündüzlü kəşfiyyatda və döyüş əməliyyatlarında olub, dinclik bilməyib, çalışıb ki, nə qədər əziyyətli olsada ve- rilmiş tapşırıq yerinə yetrilməlidir. Elşad üçün əsas məsələ dövlət tərəfindən verilən tapşırıqlar dəqiq və vaxtında yerinə yetirilməsi idi.

E. Şabanov Dövlət Təhlükəsizlik Orqanlarında xidmət etdiyi dövrdə əks kəşfiyyat sahəsindədə böyük uğurlar qazanıb. O cümlədən Qəbələdə tikilməkdə olan xüsusi rejimli

hərbi obyektin tikintisində işləyən hərbi mühəndis obyekt barədə yazılı məlumatları və çertiyojları hazırlayıb düşmən kəşfiyyatına satmaq məqsədi kimi şübhəli bilinərək E.Şabanovun və SSRİ Hərbi Əks Kəşfiyyat orqanlarının yerli şöbəsi əməkdaşları ilə birlikdə həmin şəxs ifşa edilib və cinayyət məsuliyyətinə cəlb olunub. Respublikanın Xaçmaz və Əzizbəyov rayon şöbələrinə rəhbərlik etdiyi dövürdə Elşad Şabanov əks kəşfiyyat sahəsində yüksək göstəricilərin əldə edilməsinə nail olub.

Bu yüksək göstəricilərə görə DTK-MTN rəhbərliyi tərəfindən ona vaxtından əvvəl hərbi rütbə verilmiş və fəxri fərmanla təltif olunmuşdur.

Polkovnik Elşad Şabanov MTN-nin xüsusi tapşırıqlar və hərbi məsələlər üzrə köməkçisi olduğu dövrdə Azərbaycan Respublikasının süverenliyi, ərazi bütövlüyü, Azərbaycan dövlətçiliyi uğrunda Ulu Öndərin apardığı mübarizənin iştirakçıla- rından biri olub.

E.Şabanov 1993-94-cü illərdə "Talış Muğan Respublikası" və respublikanın şimali qərb zonasında fəaliyyət göstərən separatçı qüvvələrə qarşı aparılan mübarizənin fəal iştirakçısı dır.

Onun radikal islam təşkilatı olan "Yeni Azər İslam cəmiyyətinin" zərərsizləşdirilməsində xüsusi xidməti olub. Cəmiyyətin konistitusiyaya və islam dininə zidd olan fəaliyyəti ifşa olunaraq onun rəhbərliyi cinayət məsuliyyətinə cəlb olunmuşdur.

Polkovnik E. Şabanov işlərində həmişə dəyanət göstərib. "Hər an ölümlə üzbə-üz" kitabında faktlar yaxşı işıqlandırılıb. Həqiqətən polkovnik E. Şabanov əsl qəhrəmanlıq göstərib. Xarici ölkədə bu qədər sücayyət göstərməyin özü böyük bir qəhrəmanlıqdır.

Müəllif bu kitabında xalqımızın qəhrəmanlıq göstərən, Əfqanıstan torpağında bir azərbaycan övladı kimi bütün çətinliklərə sinə gərən Azərbaycanın başını uca edən kəşfiyyat və döyüşlərdən üzüağ çıxan polkovnik Elşad Şabanovun bütün keyfiyyətlərini gənc nəslə çatdırmaqda böyük iş görüb. Bu günkü gənclərimizə əsl vətənpərvər və mübariz döyüşçülərin döyüş yollarını göstərmək çox vacibdir. Bugünkü vətənpərvər gənclə rimiz belə döyüşçülərdən nümunə götürsələr yaxşı olar. Polkovnik Elşad Şabanov özgə torpaqlarda həm SSR DTK-nin tapşırıqlarını vaxtında və gecikdirmədən yerinə yetirib, həm də döyüşçü, kəşfiyyatçı kimi çox qiymətli iş görüb. Özgə torpaqlarında

dağlarda, daşlarda gecəli-gündüzlü yatmayıb tapşırığı yerinə yetirmək hər kəsə nəsib olmur və hər zabit bu işləri gör- məyi bacarmır.

Qəhrəmanlıq öz-özünə gəlmir, gərək onu göstərməkdən ötrü həm cəsarətli, həm qorxmaz həm də vətənpərvər olasan. Bütün bu xüsusiyyətlər bu kitabda göstərilən Polkovnik E.Şabanovda var.

Kitab sanballı faktlara əsaslanaraq yazılıb. Veteranlarımız və oxucularımız tərəfindən inanırıq ki, bu kitab oxunaqlı olacaq.

Cəlil Xəlilov RVT-nın sədr müavini,
siyasi elmlər üzrə fəlsəfə doktoru, ehtiyatda olan polkovnik

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

HƏR AN ÖLÜMLƏ ÜZBƏÜZ

Müharibə tələtüm, dağıntı, faciədir. Müharibə edən dövlətdə qazanan da, uduzanda ağır itkilər verir. Belə müharibələr insanlara heç vaxt xoşbəxtlik gətirməyib, ağır işgəncələr törədib. Belə bir ağır müharibə 1979- cu ildə Əfqanıstan Respublikasında baş verib. Ağır vəziyyətdə qalan Əfqanıstan rəhbəriliyi məcburən keçmiş SSRİ-yə müraciət edib. Beynəlmiləl qardaşlıq köməyi istəyib. Ona görə də 1979-cu il 25 dekabrda Sovet Ordusunun əsgərləri Əfqanıstana daxil olub.

Bu döyüşçülər içərisində mübariz, cəsur, qorxmaz çekist Azərbaycan oğlu Elşad Şabanov da olub. Onun keçdiyi döyüş yolları ilə oxucuları da tanış etmək istərdik.

Xatırladaq ki, Elşad Şabanov 1952-ci ildə Azərbaycan Respublikasının Qax rayonunda anadan olub və orta məktəbi qızıl medalla bitirib. Elşad ilk ali təhsilini M.F.Axundov adına ADPİ-nin rus dili və ədəbiyyatı fakültəsində alıb. sonra Ukraynada Sovet ordusu sıralarında xidmət edib. 1978ci ildə SSRİ DTKnın ali məktəbini bitirdikdən sonra respublikanın Qəbələ (keçmiş Qutqaşen) rayon şöbəsində əməliyyat müvəkkili və baş əməliyyat müvəkkili vəzifəsində çalışıb. Xidməti zamanı göstərdiyi yüksək uğurlara görə 1983cü ildə SSRİ DTKnın Baş Kəşfiyyat İdarəsinin nəzdindəki iki illik xarici dil təmayüllü Xüsusi Ali Kurslarına göndərilib. O, 1985-ci ildə həmin kursları müvəffəqiyyətlə başa vurduqdan sonra SSRİ DTK-nın müşaviri kimi Əfqanıstanın qaynar nöqtələrində Pənşir, Bədəxşan vilayətlərində Əfqanıstan Xüsusi Xidmət Orqanlarının silahlı müxalifətə, banditizmə və terrorçuluğa qarşı apardığı xüsusi döyüş əməliyyatlarının təşkilatçısı və rəhbəri olub.

Həmin əməliyatlarda Elşad Şabanov yaralanıb, Kabul şəhərində hospitalda müalicə olunduqdan sonra Əfqanıstanın cənubuna, Pakistan yaxınlığındakı Zabul vilayətinə göndərilib. Döyüşlərdə xüsusi əməliyyatlara rəhbərlik edərək Sovet Ordusu xüsusi təyinatlıları ilə birlikdə Pakistandan-Əfqanıstan ərazisində müqavimət göstərən terrorçu qüvvələrə və silahlı müxalifətçilərə, hərbi yük daşıyan maşın karvanlarının məhv edilməsində fəal iştirak edərək həmin əməliyyatların təşkilatçısı və rəhbərlərindən biri olub.

E.Şabanov Əfqanıstan Xüsusi Xidmət Orqanlarının Pakistan ərazisində yerləşən terrorçu, bandit hazırlıq düşərgələrində onlara qarşı keçirdikləri "kəskin", xüsusi döyüş əməliyyatlarına rəhbərlik edib.

O, 1987-ci ilin may ayında rəhbərlik və bilavasitə sıravi döyüşçü kimi iştirak etdiyi "Stinger" döyüş əməliyyatına görə Vətənin ən yüksək mükafatına təqdim edilib, lakin bu mükafatı o, almayıb. Daha sonra aparılan əməliyyatlarda mücahidlərin Pakistan ərazisindən Əfqanıstana keçirmək istədikləri maşın karvanı döyüşdə məhv edilərək ABŞ-ın istehsalı olan "Stinger" tipli raket kompleksi və digər silah növləri ələ keçirilib.

Həmin ilin avqust ayında döyüş əməliyyatları zamanı mübariz döyüşçü Elşad Şabanov minaya düşür və ikinci dəfə yaralanır.

Mübariz və mətin döyüşçü E.Şabanov mayor rütbəsi ilə Əfqanıstandan qayıtdıqdan sonra, 1987 - 90-cı illərdə Azərbaycan DTK-nın Xaçmaz rayon şöbəsinin, 1990 - 91-ci illərdə Bakı şəhəri Əzizbəyov rayon şöbələrinin rəisi işləyib, DTK-MTN- in Mərkəzi Aparatında rəhbər vəzifələrdə çalışıb, Milli Təhlükəsizlik Nazirliyinin Xüsusi Təyinatlı dəstəsinin yaradıcısı olmuş, Azərbaycan torpaqlarının bütövlüyü naminə Qarabağ uğrunda gedən qanlı döyüşlərdə, cəbhə bölgəsində xüsusi əməliyyatların təşkilatçısı və rəhbəri olub.

1993-cü ildə Ulu Öndərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra iyul ayından Milli Təhlükəsizlik Nazirinin Xüsusi Tapşırıqlar və Hərbi Məsələlər üzrə köməkçisi olub.

Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, Azərbaycan dövlətçiliyi uğrunda

Ulu Öndərin apardığı mübarizənin fəal iştirakçısı olub.

1997-ci ilin may ayında ehtiyata göndərilib. Ehtiyatda olan Elşad Şabanov hazırda polkovnikdir.

Xalqımızın igid oğlu polkovnik Elşad Şabanov xidməti dövründə aşağıdakı mükafatlara layiq görülmüşdür:

Vətən və Təhlükəsizlik Orqanları qarşısındakı xidmətlərinə görə Elşad Şabanov "SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Fəxri Əməkdaşı" döş nişanı və SSRİ-nin "Qırmızı Ulduz" ordeni, "İgidliyə görə" medalları, "Döyüş xidmətinə görə" medalı, SSRİ Ali Sovetinin Fəxri Fərmanı, "Beynəlmiləlçi döyüşçüyə igidliyə və hərbi rəşadətə görə" medalı, "Qədirbilən əfqan xalqından" medalı, SSRİ DTK-nın "Qüsursuz xidmətlərinə görə" medalı, Rusiya Federasiyasının "Əfqanıstan müharibəsinin veteranı", "Xidmətlərinə görə" ordenləri, "İgidliyə və cəsarətə görə", "Pənşir əməliyyatına görə", "Məhəlli mü-naqişələrin iştirakçısına", "Xüsusi təyinatdakı xidmətlərinə görə", "Əfqanıstan Demokratik Respublikasında beynəlmiləl borcunu ləyaqətlə yerinə yetirdiyinə görə" medalları, Əfqanıstan Demokratik Respublikasının "Hərbi Şöhrət" ordeni, "İgidliyə görə" medalları, Müstəqil Dövlətlər Birliyinin təsis etdiyi "Döyüş əməliyyatları veteranı" medalı yubiley və xatirə medalları ilə təltif olunub.

Ya azad ol, ya candan keç

Ya azad ol, ya candan keç
İki yoldan birini seç.
Azadlığın şərbətin iç,
İgid əsgər, möhkəm dayan!

Əziz oxucular! Bu kitab 2 ildən artıq Əfqanıstan dağlarında, sonra isə I Qarabağ savaşında 2 ilə yaxın şərəfli döyüş yolu keçən, dəfələrlə ölümlə üz-üzə gələn polkovnik Elşad Yusif oğlu Şabanovun apardığı ağır kəşfiyyat və döyüş əməliy- yatlarına və bütün gənclərə nümunə ola biləcək ləyaqətli həyat yollarına həsr olunmuşdur.

Elşad Şabanov bir şərəfli zabit kimi həm ölümü dəfələrlə ayaqlayıb keçib, həm də azadlığın şərbətini içib.

1978-ci ildə Elşad Şabanov DTK-nın Ali məktəbini bitirdikdən sonra xidmət etmək üçün yeni təşkil olunan Qəbələ rayon şöbəsinə əməliyyat müvəkkili vəzifəsinə göndərilir. 1977-ci ildən Qəbələ rayonunun Soltan - Nuxa kəndi yaxınlığındakı dağda SSRİ Müdafiə Nazirliyi tərəfindən dünyada analoqu olmayan, SSRİ-də yeganə xüsusi rejimli hərbi obyekt inşa olunmağa başlayır. Soltan - Nuxa, Zarağan, Kiçik Pirəlli yaxınlığında hərbi hissələr yerləşdirilir ki, bunlar da tikintiyə cəlb olunurlar. Zarağan kəndi yaxınlığında isə zabitlər və onların ailələri üçün hərbi - bağlı şəhərcik salınır, beş mərtəbəli binalar inşa olunur.

Rusiyadan göndərilən hərbi yük Ağdaş rayonunun Ləki stansiyasına boşaldılır, oradan isə gecələr Müdafiə Nazirliyi tərəfindən salınmış beton yolla tikilməkdə olan obyektə çatdırılırdı. Obyektin nə məqsədlə tikildiyi, hansı funksiyanı yerinə yetirəcəyi sirr olaraq qalırdı.

1978-ci ilin əvvəlləri obyekti inşa edən inşaatçı – komandirlərdən bir nəfəri və Moskvadan gəlmiş nümayəndə heyəti - iki nəfər polkovnik avtomobil qəzası nəticəsində həlak olur.

1978-ci ilin yayında Azərbaycan SSRİ DTK-nın Qəbələ (Qutqaşen) şöbəsi fəaliyyət göstərməyə başladı. Şöbənin qar- şısında duran əsas, başlıca məqsəd tikilməkdə olan xüsusi rejimli hərbi obyektin ətrafında, həmçinin ona yaxın Ağdaş və İsmayıllı rayonlarının ərazisində əks-kəşfiyyat işinin və tədbirlərinin təşkili, obyekt barəsində olan sirrlərin düşmən əlinə - xarici kəşfiyyatın əlinə keçə bilməsinin qarşısının alınması, onun yanğın və digər təxribatlardan qorunmasının təmin edil- məsi, rayon ərazisində olan və fəaliyyət göstərən antisovet, millətçi və digər dövlətə, konstitusiya zidd fəaliyyətlə məşğul olmaqda şübhəli bilinən şəxslərin üzə çıxarılaraq ifşa edilməsi və digər dövləti cinayətlərin törədilməsinin qarşısının vaxtında alınması idi. Buna görə də Ağdaş və İsmayıllı rayonlarının əməliyyat şəraitinə nəzarət Qəbələ rayon şöbəsinə həvalə edilmişdi.

Şöbənin rəisi mərhum Mais Hacıyev, baş əməliyyat müvəkkili mərhum Vaqif Həsənov, əməliyyat müvəkkili isə onlardan 10 - 12 yaş kiçik olan cavan leytenant Elşad Yusif oğlu Şabanov idi.

Elşad həmin ilin oktyabrında ailə həyatı qurur. O vaxtlar DTK əməkdaşının ailəsiz yaşaması, yaşı çataraq evlənməməsi Komitənin rəhbərliyi tərəfindən müsbət hal kimi qarşılanmırdı.

5 - 6 aydan sonra, 1979-cu ilin fevral ayında Elşad Şabanov Azərbaycan DTK-nın əməkdaşları Roman Kazımov, Binnət Məmmədov və Hüseyn Əliyevlə birlikdə Daşkənd şəhərinə, SSRİ DTK-nın yarım illik Ali Əks-Kəşfiyyat kurslarına göndərilir. Əməkdaşların hər üçü Elşaddan 3-4 yaş böyük idilər, lakin Təhlükəsizlik orqanlarına yenicə qəbul edilmişdilər.

Ali kurslarda Elşad Şabanov, idmançı, SSRİ İdman Ustası olduğuna görə, dinləyici - kursantlara səhər idmanı keçmək tapşırığı alır. Və o hər səhər 150 - 200 kursanta səhər idmanı keçir. Bundan başqa Elşad burada sambo güləşi üzrə

məşqlər də təşkil edir.

1978-ci ilin aprelin 27-də Əfqanıstan Xalq Demokratik Partiyasının rəhbərliyi ilə Əfqan Xalq İnqilabı qalib gəlib.

ƏXDR-nın Mərkəzi Komitəsinin katibi Nur Məhəmməd Təraki, Babrək Karməl isə onun müavini idi.

Zahir şahın əmisi oğlu 1973-cü ilin yayında onun xaricdə olmasından istifadə edərək, heç bir qan tökülmədən hakimiyyətə gəlmiş Məhəmməd Davud rejimi çevrilir.

1979-cu ilin sentyabrında qanuni dövlət başçısı Tərakini irticanın satqın casusu olan Əmin hakimiyyət başından götürür və onu məhv edir.

Xaricdən Əfqanıstan hökumətinin daxili işlərinə qarışmaq və Əminin köməyi ilə baş verən amansız və kütləvi terror bu ölkədə demokratik quruluşa real təhlükə yaradır.

ƏXDR-nın və bütün vətənpərvər qüvvələr B.Karməlin rəhbərliyi altında Aprel inqilabının qazandığı qələbənin və ölkənin milli müstəqilliyinin müdafiəsinə qalxırlar. 1979-cu ilin dekabrında xalq Əminin fırıldaqçı və cinayətkar hərəkətinə son qoyur.

ƏXDR-nın rəhbərliyinin xahişi ilə Əfqanıstana daxil olmuş SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin xüsusi "Alfa" qrupu demək olar ki, itkisiz, Əminin sarayını ələ keçirdi və Əmin öldürüldü.

B.Karməl ƏXDR MK-nın baş katibi, Əfqanıstan İnqilab Şurasının sədri və Baş Nazir seçilir.

İmperializm düşərgəsi Əfqanıstana qarşı elan olunmamış müharibəyə başlayır. Ardı - arası kəsilməyən silahlı müdaxilə, xarici qüvvələrin hazırladıqları süi - qəsdlər Əfqanıstan Xalq Demokratik Respublikasının öz azadlığını itirməsinə zəmin ya- radırdı. SSRİ-nin cənub sərhədlərinin yaxınlığında olan Əfqa- nıstan imperializmin hərbi meydanına çevrilmək qorxusu qar- şısında qalmışdı.

Dekabr ayının 5-də SSRİ ilə Əfqanıstan arasında bağlan- mış "Dostluq, mehriban qonşuluq və əməkdaşlıq haqqında Mü- qavilə"-ni əsas gətirərək, Əfqanıstan rəhbərliyi, yaranmış ağır vəziyyəti nəzərə alaraq, SSRİ-yə müraciət edir. Beynəlmiləl qardaşlıq köməyi istəyir. Bütün bunları nəzərə alaraq, 1979-cu il dekabrın 25-də Sovet Ordusu hissələri, DTK-nın müəyyən strukturları, onun tərkibində olan Sərhəd Qoşunları Əfqanıstan Xalq Demokratik Respublikasına daxil olur.

1979-cu ilin yayında baş leytenant E.Şabanov Ali Kurs- ları müvəffəqiyyətlə başa vurduqdan sonra, hərbi xidmətini

davam etdirmək üçün Qəbələ şöbəsinə qayıdır. Bu yarım ildə onun gənc həyat yoldaşı Yeganə xanım Qaxda, valideynlərinin yanında qalmalı olur.

E.Şabanov Qəbələ rayon şöbəsində 5 il xidmət edir. Əməliyyat müvəkkili vəzifəsindən əldə etdiyi nailiyyətlərə görə baş əməliyyat müvəkkili vəzifəsinədək yüksəlir. O vaxtlar baş əməliyyat müvəkkili vəzifəsinədək yüksəlmək, mayor rütbəsi ilə istehfaya çıxmaq Dövlət Təhlükəsizlik Orqanlarında yaxşı hal hesab olunurdu. İşlədiyi müddətdə rayon rəhbərliyi, hüquq mühafizə orqanları, əhali arasında hörmət qazanır, xeyir - şər işlərində iştirak edir.

Xidmət etdiyi 5 ildə Elşad Şabanov əks - kəşfiyyat sahə- sində böyük uğurlar qazanır. Qəbələdə tikilməkdə olan xüsusi rejimli hərbi obyektin tikintisində işləyən hərbi mühəndis obyekt barədə gizli məlumatları və çertyojları hazırlayıb, düşmən kəşfiyyatına satmaq məqsədi daşıdımaqda şübhəli bili- nərək, Elşad Şabanovun SSRİ Hərbi Əks - Kəşfiyyat orqan- larının yerli şöbəsi əməkdaşları ilə birlikdə keçirdiyi əməliyyat tədbirləri nəticəsində həmin şəxs ifşa edilir və sonralar cinayət məsuliyyətinə cəlb olunur.

İsmayıllı rayonunun İvanovka kəndində Serebrennikov soyadlı sakinin rəhbərliyi ilə gizli şərairdə baptist - raskolnik dini, antisovet təbliğatı ilə məşğul olan qeyri - qanuni sekta fəa- liyyət göstərirdi. Sektanın üzvləri kolxozda iş

rejimini pozaraq, gizli yığıncaqlar keçirirdilər. Əhali arasında qadağan olunmuş dini kitabçalar, antisovet, dövlət əleyhinə olan vərəqələr yayırdılar. Sektanın rəhbəri Serebrennikovun SSRİ əleyhinə təbliğat işləri aparan, SSRİ-yə düşmən olan xarici ölkələrdə fəaliyyət göstərən və həmin ölkələrin kəşfiyyatı ilə sıx bağlı olan dini antisovet mərkəzlərlə olan əlaqəsi, sektanın fəaliyyəti Elşad Şabanovun Mərkəzin əməkdaşları ilə birgə keçirdiyi əməliyyat tədbirləri nəticəsində sektanın antisovet fəaliyyəti ifşa olunur.

Onun rəhbəri - presviter - Serebrennikovun və sektanın digər fəal üzvlərinin konstitusiyaya zidd, cinayətkar fəaliyyət- ləri təsdiq olunur və onlar məsuliyyətə cəlb olunurlar.

Serebrennikovun adına mütəmadi olaraq Böyük Britani- yadan və başqa qərb ölkələrinin kəşfiyyat orqanları ilə əlaqəsi olan anoloji təşkilatlarından bağlamalar daxil olurdu. Sereb- rennikov heç bir ictimai faydalı əməklə məşğul olmadığı halda, yaxşı geyinir, maddi cəhətdən heç bir korluq çəkmir, başda kolxozun mərhum sədri, Sosialist Əməyi Qəhrəmanı Nikolay Vasilyeviç Nikitin olmaqla,kolxoz rəhbərliyini saymırdı. Sek- tanın üzvlərini kolxoz sədrinə qarşı qoyurdu.

Bu hadisədən - sektanın zərərsizləşdirilməsindən sonra N.V.Nikitin Elşad Şabanova xüsusi hörmətlə yanaşmağa başla- yır. E.Şabanov da kəndə gələndə Nikitinə baş çəkir, onun qayğıları ilə maraqlanırdı.

Belə görüşlərin birində Nikitin Şabanova bildirir ki, gələn ay - iyulda kənddə "Ümumrespublika Kənd Təsərrüfatı Müşa- virəsi" keçirilməsi planlaşdırılır. Rayon rəhbərləri, Nazirlər dəvət olunub. Müşavirəni Mərkəzi Komitənin I katibi H.Əliyev aparacaq. O, ailəsi ilə kəndi gəzməyi planlaşdırır. Və bizim ikimərtəbəli kolxoz mehmanxanasına düşəcək. Mən ona sizin haqqınızda danışmışam və demişəm ki, sizin mehmanxanadakı şəxsi təhlükəsizliyinizin qorunmasına mən ancaq Elşad Şaba- novun namizədliyini təklif edirəm.

Nikitinin dediyi kimi, iyulin axırları kolxozda Ümum- respublika Müşavrəsi keçirilir. Ulu Öndər həyat yoldaşı ilə İvanovkaya gəlir və mehmanxananın ikinci mərtəbəsində yerlə- şirlər. Birinci mərtəbədə bir neçə nazirə və Azərbaycan DTK- nın sədr müavini general - mayor Bahadur Hüseynov başda ol- maqla, 3 nəfər DTK-nın məsul əməkdaşına və Daxili İşlər Na- zirinin müavini Vısoçenkoya yer ayrılır. Mehmanxananın daxili təhlükəsizliyi, Ulu Öndərin və ailəsinin daxili şəxsi təhlükə- sizliyi Nikitinin təqdimatı ilə, Sədr müavini B.Hüseynov tərə- findən Elşad Şabanova həvalə olunur. Ulu Öndərə və ailəsinə

verilən hər bir xörək, çay, su Şabanov tərəfindən şəxsən yoxla- nıldıqdan sonra, onun nəzarəti ilə, onunla birlikdə II mərtəbəyə qaldırılır.

E.Şabanov hər dəfə Ulu Öndəri giriş qapısında qarşılayır və yola salır. Mehmanxana Daxili Qoşunlar, polis və təhlü- kəsizlik orqanı tərəfindən qorunurdu.

Müşavirə başa çatdıqdan sonra, axşam yeməyi üçün Ulu Öndər İsmayıllı rayon Partiya Komitəsinin Birinci Katibi mər- hum Qəşəm Aslanov, Nikolay Nikitinin, sədr müavini B.Hü- seynovun müşayiəti ilə mehmanxanaya daxil olurlar. Onları qarşılayan Elşad Şabanovu Nikolay Nikitin Ulu Öndərə təqdim edir və deyir: Heydər Əliyeviç, mənim sizə haqqında danış- dığım Elşad Şabanov budur. Və əlini mehribançılıqla Elşadın çiyninə qoyur. Ulu Öndər bir anlığa onu süzür və: “Nikolay Vasilyeviç və Qəşəm Aslanov sizin haqqınızda, fəaliyyətiniz- dən danışıblar.” - deyir. Elşad özünü yığışdırıb, ancaq bu söz- ləri deyə bilir: “Azərbaycan Respublikasına xidmət edirəm!”

B.Hüseynov I mərtəbədə nazirlərlə qalır, Ulu Öndər, Qəşəm Aslanov və Nikitin II mərtəbəyə qalxırlar. B.Hüseynov özü də Şabanova təşəkkür edərək, bildirir ki, sizin haqqınızda deyilən bu sözlər bizi də sevindirdi.

Axşam yeməyindən sonra Ulu Öndər, həyat yoldaşı və digər onu müşayiət edən şəxslərlə çıxdıqda E.Şabanova bu sözləri deyir: “Bir daha sağ olun! Biz yəqin ki, bu yaxınlarda görüşəcəyik.”

Qonaqlar saat 21 radələrində Bakı şəhərinə yola düşürlər.

Bu hadisəfən 1 ay keçmiş DTK-nın Mərkəzi Aparatından bildirirlər ki, Ağdaş şəhərində Ümumrespublika pambıq müşavirəsi keçiriləcək. Ulu Öndər qatarla Yevlaxa, oradan da Ağdaşa gələcək. O vaxtlar Ağdaş rayon Partiya Komitəsinin I katibi Almaz Hacıyeva idi. Pambıq rayonlarının I katibləri, Kənd Təsərrüfatı Nazirliyinin işçiləri Ağdaşa gələcəkdi. Müşa- virə Ağdaş rayon Mədəniyyət Evində keçirilirdi. Sonra məlum olur ki, Ulu Öndərlə birlikdə oğlu da gəlir. Ulu Öndərin Yevlax

şəhərindən gələn maşın karvanı Yevlax - Ağdaş sərhədində qarşılanır və o, Ağdaşa gətirilir. E.Şabanova müşavirə zalında oturmaq və Ulu Öndərin gənc oğlunun təhlükəsizliyini təmin etmək tapşırığı verilir. E.Şabanov, bu tapşırıqların öhdəsindən layiqincə gəlir. Axşam müşavirə yekunlaşdıqdan sonra Ulu Ön- dər, oğlu və onları müşayiət edən heyət Ağdaşın Ləki stansiya- sından qatarla Bakıya yola salınır.

Sentyabrın əvvəllərində şöbənin rəisi Mais Hacıyev Elşad Şabanovu yanına çağırır və sevinclə bildirir ki, onun şəxsi iştirakı ilə Ağdaşda və İsmayıllıda keçirilən tədbirlərə görə Elşada təşəkkür elan edilmiş və xidməti fəaliyyəti qiymətlən- dirilərək DTK-nın xüsusi əmrinə düşmüşdür. (O vaxtlar DTK əməkdaşları çox vaxt xüsusi xidmətlərinə görə DTK-nın Fəxri Fərmanıilə təltif edilirdi). Rəis həmçinin əlavə edir ki, general - mayor B.Hüseynov bildirib ki, "Heydər Əliyev sizi şəxsi müha- fizəsinə götürmək fikrindədir. Sədr müavini sizin cavabınızı gözləyir. Bu hər adama nəsib olmur, Şabanov, şəxsən mən ge- dərdim."

Elşad bir anlığa fikirləşir və cavab verir ki, "rəis, mənə olan etibara görə çox sağ olun, burada sizin də müəyyən qədər əməyiniz var, ancaq mən, bu işə hələ çox cavanam. Bu işdə təcrübəm azdır. Mən əməliyyat işçisiyəm və bu sahədə işimi davam etdirmək istəyirəm. Bir də ki, mənim boyum - buxunum buna imkan vermir. Rəhbərin yanında daha ucaboylu əməkdaş olsa, yaxşı olar."

Rəis fikrə gedir, heç nə demir. Elşad onun icazəsi ilə kabinetdən çıxır.

Bir müddət keçdikdən sonra baş əməliyyat müvəkkili mərhum mayor Vaqif Həsənovu Gəncə şəhər şöbəsinə dəyi- şirlər və Elşad Şabanov onun yerinə şöbənin baş əməliyyat müvəkkili - rəisin müavini təyin edilir. O, həmçinin şöbənin Partiya Təşkilat Katibi seçilir.

1982-ci ilin dekabrında Elşad Şabanovu Azərb.DTK-nın kadrlar şöbəsinə dəvət edirlər. Onu şəxsən qəbul edən kadrlar

üzrə sədr müavini general - mayor Abdul Süleymanoviç Xa- lıqov E.Şabanova Fəxri Fərman təqdim edir və əldə etdiyi nailiyyətlərə görə təşəkkürünü bildirir. Sonra əlavə edir ki, digər bir neçə əməkdaşla birlikdə onun da namizədliyini SSRİ DTK-nın Baş Xarici Kəşfiyyat İdarəsinin nəzdindəki xarici dil təmayüllü XüsusiAli Kurslara təqdim ediblər.

1983-cü ilin yanvarında Elşad Şabanov yenidən Bakıya Kadrlar Şöbəsinə çağırılır və ona bildirirlər ki, Moskvadan ancaq onun namizədliyini qəbul ediblər.

Kurslar Daşkənd şəhərində təşkil olunmuşdu. Buranın iqlim şəraiti Şərq ölkələrinin iqlim şəraitinə daha çox uyğun gəlirdi. Burada mübariz döyüşçü Elşad Şabanovu böyük sınaq gözləyirdi. Belə ki, SSRİ-nin müxtəlif respublikalarından gələn 60 nəfər əməkdaşdan ancaq 30 nəfəri kurslarda oxumaq üçün vəsiqə alacaqdı. Əməkdaşlar üçün yaş həddi 33 - 38 idi. Rütbə- ləri kapitan - mayor, iş təcrübələri də lazımi qədər var idi. Hər Respublika Təhlükəsizlik Komitəsi öz bacarıqlı namizədini göndərmişdi.

İmtahan və müsabiqədən müvəffəqiyyətlə keçən Elşad Şabanov nəzərdə tutulan 30 nəfərdən biri olur. Kursların Əfqa- nıstanda xidmət etmək üçün kadrlar hazırladığı sonradan məlum olur.

Kursant - dinləyicilər Rusiya Federasiyasının müxtəlif şə- hərlərindən, vilayətlərindən, Ukrayna və Belorusiya DTK-dan və bir nəfər Pribaltikadan - Litva DTK-dan idi. Onların içəri- sində müsəlman respublikasından olan yeganə

zabit Elşad Yusif oğlu Şabanov olur.

Kurslardakı sərt təlim - tərbiyə rejimi ailə yaşayışına imkan vermədiyindən Elşad Şabanov 2 il təhsil müddətində başqa kursantlar kimi tək məxfi mənzildə yaşayırdı. Kursant- ların mənzilləri şəhərin müxtəlif yerlərində yerləşirdi. Dərslər səhər 08:30-da başlayır, axşam saat 19:30-da qurtarırdı. Arada ancaq saat yarım nahar fasiləsi olurdu. Kurslarda xarici dildən başlamış xüsusi fənnlər, müəyyən silahlardan istifadə qaydaları,

əlbəyaxa döyüş növləri, nəqliyyatın müxtəlif növlərindən isti- fadə etmək bacarığı, xüsusi döyüş taktikası, xəritə ilə işləmək və digər çətin döyüş və əməliyyat şəraitində lazım olan təlimlər verilirdi.

Əfqanıstanın və İranın tarixindən başlamış, orada yaşayan tayfalar, qəbilələr, xalqlar, etnik qruplar, siyasi partiyalar və ölkə əhalisi barədə dinləyicilərə məlumat verilirdi. İslam dini- nin qayda - qanunları tədris olunurdu.

Xarici - fars, bəri, puştun dilini Daşkənd Universitetinin savadlı, vaxtılə İranda və Əfqanıstanda işləmiş, ixtisaslaşmış müəllim - professor personalı tədris edirdi.

Elşad Şabanovun 5 nəfərlik dil qrupuna Əfqanıstanda Herat şəhərində Sovet Hərbi Kəşfiyyatında tərcüməçi işləmiş, Herat hadisələrində yaralanmış, başı tez - tez əsən, Universite- tin dosenti, milliyyətcə özbək olan Əlişer İlyasoviç fars və bəri dillərindən məşğələlər aparırdı. Məşğələlər 2 qoşa saat olurdu. Kurslarda ildə iki dəfə, qış və yay imtahanları keçirilirdi. Kur- santların hamısı xüsusi nəzarətdə idi.

Kursların rəhbəri Özbəkistan Dövlət Təhlükəsizlik Ko- mitəsinin sabiq sədr müavini, polkovnik Uçkun Sadıkoviç Ra- himov idi. Rahimov sonralar Özbəkistan Daxili İşlər Naziri təyin olunur.

Elşad Şabanov kurslarda səylə çalışaraq, idmanla məşğul olur. Özbəkistan "Dinamo" cəmiyyəti birinciliyində mükafat qazanaraq, 82 kq çəki dərəcəsində ikinci dəfə idman ustası normasını yerinə yetirir.

Kursant yoldaşları ilə səmimi, mehriban münasibətdə olsa da, E.Şabanovu yoldaşları ciddi bir zabit kimi qəbul edirlər.

Onun kursantlardan Sverdlovsk vilayəti DTK-nın əmək- daşı Aleksandr Filippov, sərhədçi - zabit, Moskva vilayətindən olan Vyaçeslav İskussnıy ilə yaxşı münasibətləri olur.

Kursları müvəffəqiyyətlə bitirən Elşad Şabanov bir aya yaxın Qax rayonunda, ailəsinin - yoldaşı və iki azyaşlı övlad- larının - qızının və oğlunun yanında olur. Xidməti şəraitlə əla-

qədar olaraq, ümumiyyətlə, kurslarda təhsil aldığı və Əfqanıs- tanda xidmət etdiyi dövrlərdə Elşad Şabanov dörd ildən çox ailəsindən ayrı düşür.

1985-ci ilin avqust ayının əvvəllərində Moskvaya - Baş Kəfiyyat İdarəsinin sərəncamına gəlir. Orada kursları bitirmiş

30 nəfərdən 25 kursanta yenidən müəyyən təlimat verilir. Sentyabr ayının 1-də onlar Tacikistanın paytaxtı Düşənbə şəhərinə gəlirlər. Gecə orada mehmanxanada qalır, səhər tezdən Əfqanıstanla sərhədə hərbi təyyarə meydanına gətirilirlər. Əfqanıstandan qayıdan ağır yüklü hərbi təyyarələr bu meydan- da otururdu. Zabitlər - Elşad Şabanovgil orada olduqları vaxt belə bir mənzərənin şahidi oldular: İri yük hərbi təyyarəsi mey- dana endi. Təyyarədən sərhəd qoşunlarının əsgərləri, əllərində it gəzdirən bir neçə əsgər düşdü. Sonra ağır yaralıları xərəklə düşürdülər. Bəziləri isə çətinliklə də olsa, özləri yeriyirdilər.Bir azdan təyyarənin arxa qapısı da açıldı. Oradan isə içərisində həlak olmuş sərhədçilərin cəsədləri olan 6 - 7 tabut daşıyıcı maşınlara yerləşdirildi...

Həmin gün Elşadgilin qrupu Əfqanıstanda yerləşən DTK- nın nümayəndəliyinin göndərdiyi xüsusi təyyarə ilə Kabul şəhərinə uçurlar. Nümayəndəlikdə müəyyən ixtisaslar üzrə qruplaşdırıldıqdan sonra bir neçə nəfəri nümayəndəlikdə saxla- yır, qalanlarını Əfqanıstanın hərbi əməliyyatların getdiyi əya- lətlərinə bölüşdürürlər. Kabulda 1 həftə xüsusi təlimat aldıqdan

sonra Elşad Şabanov Bədəxşan vilayətinə göndərilir.

Vilayətin mərkəzi Fəyzabad şəhəri idi. Əməliyyat qrupu orada 4 otaqlı, 1 mərtəbəli, çiy kərpicdən tikilmiş binada yerlə- şirdi. Qrupda 5 nəfər müşavir və 4 nəfər - 1 zabit və 3 əsgər (onlar qrupu mərkəzlə rabitə əlaqəsi ilə təmin edirdilər) vardı. Müşavirlərin hərəsinin öz əməliyyat sahəsi vardı. Elşad Şaba- nov 5-ci xəttə - silahlı, barışmaz müxalifətə və terrorizmə qarşı mübarizə - əməliyyat sahəsinə təyin olunmuşdu. Bunu mərkəz həll edirdi. Əfqanıstan Təhlükəsizlik Xidmətinin (XAD) Bədəxşan Vilayət İdarəsinin xüsusi əməliyyat dəstəsi də onun

sərəncamına verilmişdi. Bu dəstədə - batalyonda 500 - 600 dö- yüşçü var idi. Döyüşçülərin içərisində mücahidlərin tərəfində dövlət qoşunlarına qarşı vuruşmuş, sonradan müəyyən səbəb- lərdən dövlətin tərəfinə keçmiş, xüsusi əməliyyatlarda təcrübəsi olan döyüşçülər və komandirlər vardı.

Müşavirlər həm öz sahələrində olan Təhlükəsizlik orqanı- nın rəhbəri və əməkdaşları ilə fəaliyyət göstərir, onlara işlərində kömək edir, məsləhətlər verir, həmçinin fəaliyyətlərinə nəzarət edirdilər.

Elşad Şabanovun apardığı xəttin qarşısında duran məsələlər aşağıdakılar olub:

- Silahlı müxalifəti əhalinin gözündən salmaq, əks partiyalardan olan terrorçu və silahlı müxalifətin dəstələrinin bir - biri ilə silahlı toqquşmasını təşkil etmək və buna nail ol- maq, Sovet Ordusunun hərbi aviasiyasının düşmən birləşmə- lərinə, düşərgələrinə havadan zərbə vurmaq üçün kəşfiyyat məlumatı əldə etmək, əməliyyat batalyonu vasitəsi ilə xüsusi döyüş əməliyyatlarını həyata keçirmək. Bandit dəstələrini içə- ridən dağıtmaq üçün onun rəhbərlərinə qarşı "kəskin tədbirləri" həyata keçirmək və s.

MÖVLƏVİ ƏMƏNULLA BANDASININ MƏHV EDİLMƏSİ

Əfqanıstanın SSRİ ilə sərhədində silahlı müqavimət göstərən, yeni dövlət seçimini tanımayaraq, Əfqan və Sovet qoşunlarına qarşı vuruşan bandalar, hərbi birləşmələr tacik, özbək, türkmən millətindən olub, Əfqanıstan İslam Cəmiyyəti Partiyasına daxil idi. ƏİC (Cəmiyyəte İslamiye Əfğanistan) Cəmiyyətin rəhbəri 1941-ci ildə Bədəxşan vilayətinin Fəyzabad şəhərində varlı maldar ailəsində anadan olmuş, milliyyətcə tacik, yaftalı tayfasından olan teologiya professoru Burhanəd- din Rəbbani idi. Kabul Universitetinin teologiya fakültəsini

bitirmiş, sonra təhsilini Misirdə Əl - Əzxar Qahirə Universite- tində davam etdirmişdi. O, burada dini mərkəzdə "Müsəlman qardaşları" təşkilatının rəhbərləri ilə tanış olur, həmin təşkilata üzv olaraq, onun yaradıcı və ideoloqları Həsən - əl - Bann və Seyid Kutbun dini baxışlarının davamçısına çevrilir.

1969-cu ildə B.Rəbbani Kabul Universitetində yaradılmış birinci fundamentalist təşkilat olan "Müsəlman gəncləri"-nin əsasında Əfqanıstan İslam Cəmiyyəti Partiyasının əsasını qoyur.

Sentyabrın axırları belə bir məlumat daxil olur ki, SSRİ ilə sərhəddə dağlıq ərazidə Baharək adlı məntəqədə Sovet sərhədçilərinin bir qrupu düşmənin pusqusuna düşmüş, ancaq nə ölüləri, nə də diriləri məlum deyildi. Həmin ərazi İslam Cəmiyyəti Partiyasından olan Mövləvi Əmənullanın bandasının nəzarəti altında idi. Mövləvi qəddarlıq və qansızlıqda ad qazanmışdı. Elşad Şabanova tapşırıq verilir ki, sərhədçilərin axtarışında Sovet sərhədçilərinə köməklik göstərsin. Əraziyə bələd olan, vaxtilə buralarda Sovet sərhədçilərinə və Dövlət qoşunlarına qarşı vuruşan təcrübəli döyüşçülərdən 15 nəfər götürüb, sərhədçilər ilə birlikdə həmin əraziyə uçurlar.

Bir neçə saat çəkən axtarışdan sonra keçmiş mücahidlər yaxınlıqda olan qayaların üstündə uçan qartalları müşavirə göstərərək, deyirlər ki, orada cəsədlər olmalıdır. Elə də olur. Döyüşçülər həmin sahəyə tələsirlər və belə bir dəhşətli mənzə- rənin şahidi olurlar: sərhədçilərin 2 zabitinin və əsgərlərin cəsədləri

ətrafa səpələnmiş, başları bədənlərindən ayrılmışdı. Papaqları isə başlarına geydirilmişdi. Hardasa, 20 - 23 cəsəd olardı. Boyunlarındakı qan qurumuş, xırda ağ qurdlar kəsilmiş boyuna daraşmışdı. Yaxınlıqda uçan dağ qartalları nədənsə, cəsədlərə yaxın durmurdular. Sərhədçilərin cəsədlərinin bəziləri şişmişdi. Hələ hava çox isti olduğundan, üfunət iyi hər yeri bürümüşdü.

Sonralar döyüşlərdə həlak olan yarımbaşlı, bağırsaqları tökülmüş, qolsuz - qıçsız insanların cəsədlərinə soyuqqanlılıqla

yanaşan Elşad, bu acı səhnəni, Vətəndən uzaq düşmüş, beynəl- miləl borcunu yerinə yetirərək, yad ölkədə həlak olan gənc sərhədçiləri yaddan çıxara bilmədi.

Sonradan, o, gördüklərindən anladı ki, bu, mücahidlərin qəddarlığının sadə bir nümunəsidir. Pakistanda xidmət edən və mücahidlərlə işləyən bir amerikalı müşavir deyib ki, bizim əsirlərə verdiyimiz işgəncə mücahidlərin işgəncələrinin yanında heç nədir.

Sərhədçilər cəsədləri sərhədin o biri tərəfinə - SSRİ - Tacikistan ərazisində olan Gülxana adlanan sərhəd bazasına apardılar. Bu hadisə ilə bağlı Şabanovun əldə etdiyi kəşfiyyat məlumatlarından aydın olur ki, sərhədçilər Mövləvi Əmənulla tərəfindən məhv edildikdən sonra ağsaqqalları ona xəbərdarlıq etmişdilər ki, törətdiyi hadisəni, etdiyi qəddar hərəkəti – başla- rın kəsilməsini "Şurəvi", yəni Sovet Ordusu bağışlamayacaq, bunun qisasını alacaqlar. Bu təhlükəni hiss edən tayfa ağsaq- qalları Əmənullaya əhalinin nəzarətdə olan kışlaklardan mü- vəqqəti olaraq, başqa bir yerə köçürülməsini təklif edirlər. Bir neçə kışlak boşaldılır. Gözlənən hadisə baş verir: Gülxanadan qalxan sərhədçilərin hərbi vertolyotları həmin məntəqələrə raket zərbəsi endirir. Kışlaklar isə boş olur.

Hava zərbələri əksər vaxtlarda DTK-nın müşaviri ilə məsləhətləşdikdən sonra, silahlı müxalifətin, terrorçuların dəqiq koordinatları əldə olunduqdan sonra vurulmalı idi. Elşad Şabanov həmişə tələb edirdi ki, aviasiya mücahidlərin

nəzarəti altında olan, günahsız əhali yaşayan məntəqələrə hava zərbələri vurmasın. Təəssüf ki, emosiyalar qızışanda və mücahidlər amansız hərəkətlər edərək dövlətlə bağlanan müqaviləni pozan- da hər şey baş verirdi. Bu isə hər iki tərəfə ziyan vurur, qardaş qırğınını, müharibəni daha da alovlandırırdı.

1980-ci illərin axırlarında hərbi əməliyyatlar daha da ge- nişlənmiş, döyüşlər fəallaşmışdı. ABŞ başda olmaqla, Qərb öl- kələri mücahidlərəhərə hər cür yardım edirdi. Kapitalist ölkə- ləri, hətta Çin də SSRİ-yə qarşı idi. Mücahidlər yeni silah növ-

ləri ilə təchiz edilirdi. Bununla da mücahidlərdə bir güclü ar- xaya, onları müdafiə edən gücə inam və arxayınlıq yaranırdı.

Bir həftə keçmiş Elşad Şabanov sərhədçilərlə birlikdə Mövləvi Əmənullanın bandasının məhv edilmə planını hazır- layır.

Kəşfiyyat məlumatları daxil olur ki, məlum hadisədən və hava zərbələrindən sonra Əmənullanın lazımsız hərəkətlərin- dən, sıravi mücahidlərə və ağsaqqallara qarşı saymaz, kobud hərəkətlərindən bezmiş bir sıra banda üzvləri ondan üz döndə- rərək, daha böyük gücə malik olan AƏİC-nın üzvü, Rəbbaninin yaxın adamlarından olan Mövləvi Cəlilin silahlı dəstəsinə qoşulublar.

Sərhədçilərlə planlaşdırılır ki, batalyon hücum edir, vuruşur. Əgər böyük bir problem əmələ gələrsə, pusqu qurmuş sərhədçilər köməyə gəlir.

Elşad günahsız əhalinin qanının tökülməməsi üçün, emo- siyaya qapılmış, intiqam hissi ilə allışan sərhədçilərin köməyinə ehtiyac duymurdu. Şabanov belə bir varianta əl atır: Mövləvi Əmənullanı təxribat nəticəsində aradan götürmək və dərhal hücuma keçmək. Bu iş belə də olur. Bandada fəaliyyət göstərən Təhlükəsizlik Orqanı döyüşçüsündən istifadə edilməklə, səhərə yaxın Əmənulla yatağındaca öldürülür və döyüşçünün müvafiq işarəsindən sonra, dan sökülənə yaxın batalyon hücuma keçir. Yuxulu, nə baş verdiyini anlamayan mücahidlər az bir vaxtda böyük itki verir. Günortaya yaxın döyüş qələbə ilə başa çatır.

Döyüşün nəticəsinə görə 30-a qədər mücahid məhv edilir, 10 nəfər isə ağır və yüngül yaralanır və əsir götürülür. Balaca bir qrup isə mühasirədən çıxa bilir və Mövləvi Cəlilin bandasına birləşirlər. Batalyondan isə 2 nəhər həlak olur, 5 nəfər yüngül yaralanır.

Bu döyüş Elşad Şabanovun birinci döyüşü olur. O, gələ- cəkdə batalyonun şəxsi heyətinin etibarını və hörmətini qaza- naraq, qələbəyə ruhlandırmaq üçün sıravi döyüşçü kimi onlarla birlikdə düşmənlə vuruşur. Halbuki, müşavir üçün bu, qadağan

idi. Amma Elşad Şabanov hiss edir və görürdü ki, yaranmış şəraitdə bundan başqa yol yoxdur. Bunu mərkəzdə bilirdi...

Bu döyüşdən sonra batalyonun şəxsi heyəti arasında söhbət gedirdi ki, bizim müşavir çox döyüşlərdə iştirak etmiş- dir. Bu döyüşdə onun bacarığını gördük. Elşad da özünü o yerə qoymur, öz - özünə fikirləşirdi ki, yaxşı ki, etibar etməyə, inanmağa başlayırlar.

Elşadın Şabanovun döyüş barəsində özünəməxsus fikri vardı. Döyüşçü özündə qələbəyə inam yaratmalı, soyuqqanlı, cəsarətli və qətiyyətli olmalı, düşmənin gücünü qiymətləndir- məyi bacarmalıdır.

Elşadın Şabanovun qarşısında daha böyük bir döyüş əmə- liyyat - İslam Cəmiyyəti Partiyasının 350 - 400 nəfərlik hərbi birləşməsinin - bandasının, rəhbəri barışmaz silahlı müxalifətin nümayəndələrindən biri olan B.Rəbbaninin həmvətəni, Əhməd şah Məsudun məsləkdaşı Mövləvi Cəlilə qarşı döyüş əməliyyatı dururdu.

KUROMUN - MUNCAN ƏMƏLİYYATI

Əyalətin şimal - şərqdən üç ölkəyə - Çin, Pakistan və Hin- distana çıxışı var idi. Bu çıxışa Sovet sərhətçiləri- "Kitayskiy koridor" ("Çin dəhlizi") adı

verilmişdilər. Ərazi silahlı mü- xalifətin dəstələrinin əlində, müəyyən bir hissəsi dövlətin nəzarətində idi. Həmin ərazilər Kuromun - Muncan adlanırdı. Orada kustar üsulla qiymətli daş olan lazurit çıxarılır, narkotik bitkiləri becərilir, bu üç ölkəyə gizli yolla ötürülürdü. "Çin dəhlizi" çətin keçilən, hündür qayalı dağların arasından keçən böyük bir cığır idi. Qar yağanda, o yol keçilməz olurdu. Hündür, başı qarla örtülü olan Pamir dağları isə buradan görünürdü.

Mərkəzdən əməliyyat qrupuna şifr - teleqram vasitəsilə məlumat verilmişdi ki, mücahidlər əldə etdikləri böyük həcmdə

yüksək keyfiyyətli lazuritin və narkotik maddələri (tiryək) (sonradan məlum oldu ki, narkotik maddə plastilin şəklindədir. Pakistana keçirmək üçün Çin dəhlizində Kuromun - Muncan ərazisindədirlər. Lakin qar yağdığına görə yol bağlanmış, bir həftə olar ki, düşərgə qurub, qarın səngiməsini gözləyirlər. Tapşırıq verildi ki, mücahidlərin həmin qrupu məhv edilməli, lazorit və narkotik Kunduz hərbi təyyarə meydanına çatdırıl- malıdır. Əməliyyat qrupunun zona mərkəzi SSRİ ilə sərhəd olan Kunduz vilayətinin Kunduz şəhərində yerləşirdi. Burada Sovet Ordusunun bir neçə böyük hərbi hissələri, aviasiyası yerləşirdi.

Əmrin icrası Elşad Şabanova həvalə edilir. Tapşırığı yerinə yetirmək üçün Elşad Şabanovun sərəncamına iki "Mİ - 24" "Krokodil" vertolyotları verildi ki, onlar da yük vertolyotu olan "Mİ - 6" (bu vertolyot "Letayuşaya korova" "Uçan inək" ləqəbi almışdı, ləng uçurdu. İstismar vaxtı keçmiş bu qurğu tez

- tez qəzaya uğrayırdı) müşahidə etməli, Elşadın qrupunun desant salmasından əvvəl ərazidə cəmləşən mücahidlərə hava zərbəsi vurmalı idi. Sovet pilotlarına başqa nə tapşırıq verildiyi müşavirə -E.Şabanov məlum deyildi.

Vertolyota yaralı və əsir düşmüş mücahidlərin – terrorist- lərin götürülməsi qəti şəkildə qadağan edilirdi. Əmri pozmaq müharibə qanunları ilə cəzalanmaq idi...

Tələsmək lazım idi. Vertolyotlar səhər tezdən Kunduzdan Fəyzabad təyyarə meydançasına gəlirdi.

Elşadın Şabanov əməliyyat batalyonundan 20 - 25 nəfər hazırlıqlı, döyüşlərdə fərqlənmiş, çətin şəraitdə vuruşa biləcək döyüşçü seçdi. Komandirlərini isə döyüşlərdə bərkimiş, müşa- virin etibarını qazanmış, hakimiyyətə sadiq, ƏXDP-nın (onlar da sadiq idilər və XAD özəyi əsasən onlardan təşkil olunmuş- du) pərçəm qanadının üzvü olan Rəfiq Maqsudu təyin etdi.

Vertolyotların pilotları həmin ərazinin koordinatlarını bilirdilər. Müşavir Elşad Şabanov da həmin ərazini yaxşı tanı- yan, orada doğulub, boya - başa çatmış bələdçi - döyüşçü götür-

müşdü. Ərazi, orada fəaliyyət göstərən silahlı dəstələr, onların rəhbərləri, dini xadimləri, əgər vertolyot vurularsa, sağ qalarlar- sa, necə hərəkət etmək lazım gəldiyi Elşad tərəfindən planlaş- dırılmış, ölçülüb - biçilmişdi. Lakin ona məlum idi ki, vertolyot vurularsa, hündür, qarlı dağların qayalıqlarında məhv olacaqlar. Ancaq Elşadın Şabanovda həmişə qələbəyə inam hissi, soyuq- qanlılıq və cəsarət vardı. Bu, XAD-ın rəhbərliyinə, hətta mər- kəzə də məlum idi. Elə buna görə də tapşırığı yerinə yetirmək ona həvalə olunmuşdu.

Elşad səhər alaqaranlıqda əməliyyat qrupu ilə hərbi hava meydanına gəlir. Müdafiə Nazirliyinin Baş qərargahının Hərbi Kəşfiyyatının vilayətdə fəaliyyət göstərən hərbi kəşfiyyatçılar qrupunun qərargahı təyyarə meydanında yerləşirdi. Müşavir Elşad əməliyyatın bəzi detallarını araşdırmaq üçün onlarla əv- vəldən danışmışdı. Kəşfiyyatçılarla DTK-nın müşaviri arasında yaxşı xidməti və şəxsi münasibət vardı.

Həmişəki kimi onu kəşfiyyatçıların tərcüməçisi - azər- baycanlı - Bakıdan olan Əlibaba qarşıladı. Əfqan qaydası ilə üç dəfə öpüşdükdən sonra kəşfiyyatçıların yanına keçdilər.

Qısa əməliyyat müşavirəsində əməliyyatın gedişi barədə müəyyən detallar araşdırıldı. Hərbi kəşfiyyatçılar söylədilər ki, bir - iki dəfə onlar vertolyotla həmin sahəyə uçmağa, məlumat toplamağa səy göstərmiş, lakin güclü atəşə

tutulmuş və təsa- düfən sağ qalmışlar. Orada yüksəkliklərin hamısında düşmənin iri çaplı pulemyotları DŞK yerləşdirilmişdi. (Bu silaha düşmənlər "Dəhşəkə" deyir, onunla vertolyotları, hətta hərbi təyyarələri vururdular.)Deyilənə görə, sonralar Sovet İttifaqı Qəhrəmanı adı verilmiş general - mayor Rudskoyun təyyarəsini bu silahla vurmuşdular. Mücahidlər təyyarələri vurmaq üçün ABŞ-ın istehsalı olan "Stinqer" paket kompleksini sonralar - 1986-cı ilin əvvəllərində əldə etdilər.

Kəşfiyyatçıların rəhbəri İvanov Elşad Şabanova ancaq bu sözləri dedi: "Bu əməliyyat çox təhlükəli və ağılasığmazdır." Elşad özünəməxsus tərzdə gülümsəyərək, əllə salamatlaşmadan

dedi: "Yaxşı, sağ olun, getmək vaxtıdır, biz hələ görüşəcəyik!" Otaqdan çıxaraq qrupun yanına gəldi. Vertolyotlar artıq meydanda hazır vəziyyətdə - pərləri fırlanaraq, döyüşçüləri gözləyirdi. Əlibaba Elşadın etirazına baxmayaraq, onu vertol- yotun yanına qədər ötürdü. Gözləri bir az yaşardı, köksünü ötürdü və ancaq bu sözləri deyə bildi: "Sağ - salamat qayıt, am- ma sən ölümlə oynayırsan..." və üzünü çevirdi.

Elşad Şabanov isə məğlubiyyət barədə yox, soyuqqan- lılığını itirməyərək tapşırığı yerinə yetirmək, itkisiz geri dönmək haqda fikirləşirdi. Vertolyotlar havaya qalxdı. İki "Krokodil" - "Mi - 24" yük vertolyotunun sağ və sol cinahların- da uçaraq, onu müşayiət edirdi. Dağlar çox hündür, sərt qayalıqlı idi.Elə bil bu dağlarda heç vaxt ağac - kol bitməmişdi. Aşağıda dərələr, yarğanlar bir - birini əvəz edir, hər yer qalın qarla örtülmüşdü. Havanın soyuqluğu vertolyotun içində də hiss edilirdi. "Buranın dağları bizimkilərə oxşamır" - deyə Elşad fikirləşdi.

Əfqan milli libasında olan döyüşçülər soyuğu hiss etmə- mək üçün "pəfu"- ya bürünərək, sakitcə bir - birinə sıxılmışdı- lar. Hərəkət edəndə soyuq hiss olunmur, oturanda isə elə bil həmişə soyuq olur - deyə Elşad fikirləşdi. Fikirlərini atəş səs- ləri, vertolyotun silkələnməsi pozdu və o, əli ilə döyüşçülərə

sa- kit olmaq əmri verdi. “Krokodil”-lərdən biri bir az aşağı endi, dağın ətəyinə raket zərbəsi endirdi və yenidən qayıdaraq, yük vertolyotunun ətrafına düzəldi.

Səhər tezdən, qarlı, soyuq havada sovet vertolyotlarının ərazidə uçuş etmələrini düşmən qüvvələri gözləmirdilər. Hava zərbəsi ilə digər atəş nöqtələri də susduruldu. Görünür, müca- hidlər vertolyotları “qarşılamağa” hazır deyilmişlər. Yoxsa, hər üçünü də asanlıqla vurardılar.

Müşavir döyüşçülərlə bir sırada oturmuşdu. Birdən pilotlar olan kabinənin qapısı açıldı, pilot Elşad Şabanova yaxınlaşaraq, əlində tutduğu paraşüt çantasını uzadaraq, dedi: “Yoldaş müşavir, paraşütü geyinin.” Döyüşçülər bir anlığa

müşavirlərinə tərəf çevrildilər. Hamının baxışı ona zillənmişdi: müşavir nə edəcək, təkcə ona verilən, başqalarına verilməyən paraşütü geyinəcək, ya yox?! Elşad əli ilə paraşütü kənar etdi və dedi: “Sağ olun, yoldaş, ehtiyac yoxdur!” Pilot onu başa düşdü və paraşütü də götürüb, kabinəyə qayıtdı.

Vertolyotla bir saata yaxın uçduqdan sonra iki hündür dağın arasındakı meydançaya enməyə başladılar. Vertolyotun balaca pəncərəsindən aşağı baxan müşavirə bələdçi - döyüşçü həmin yerin olduğunu söylədi. Məlumat pilotlara da ötürüldü.

“Mİ - 6”-in siqnalından sonra “Krokodil” aşağı şığıdı. Artıq aşağıdakı insanlar, çadırlar aydın seçilirdi. Qar isə yavaş - yavaş yağırdı.

Bandanın qərar tutduğu ərazi, əməliyyat planına uyğun olaraq, raket, nurs atəşinə, sonra pulemyot atəşinə tutuldu. 10

- 15 dəqidən sonra atəş kəsildi. Elşadın olduğu vertolyot qara oturdu. Döyüşçülər çevikliklə, cəsarətlə düşmənin üzərinə yeri- dilər. Düşmən belə bir havada, səhər tezdən nə baş verdiyini anlaya bimədi. Sonradan atışma gücləndi. Bir saata qədər çəkən döyüşdə düşmən tamamilə məhv edildi. Qaçıb - qurtarmaq isə mümkün deyildi. Hər yan qayalıqla, qarla bağlı idi. Elə bil dərin bir quyuya düşmüşdülər. Düşmənlərin, at və ulaqların bir hissəsi vertolyotların hava zərbəsi ilə məhv edilmiş, yerə yıxılaraq zarıyırdı.

25 nəfərdən çox düşmən məhv edilmişdi. (Döyüşdə belə sayları dəqiq demək mümkün deyil.) Batalyondan isə bir nəfər yüngül - ağır, iki nəfər yüngül yaralanmışdı. Bu döyüşdə də Elşad Şabanov müəyyən əmrlər verməklə yanaşı, sıravi əsgər kimi, şəxsi heyətlə birlikdə döyüşdü.

O, həmişə düşmənin gözləmədiyi hava şəraitini seçir və qəflətən, gözlənilməz vaxtda hücuma keçirdi.

Vaxti itirmək olmazdı. Elşad Şabanov döyüşçülərə böyük çadırda olan iri kisələrə və xurcunlara yığılmış yükü vertolyota daşımaq əmrini verdi. O, döyüşçüləri tələsdirir, özü də kömək- lik göstərirdi. Heç nəyə inanmaq olmazdı. Düşmənlə olan

məsafə çox yaxın idi. Hər şey baş verə bilərdi. Atışmanın səda- ları ətrafa yayılaraq, yəqinki düşmənə çatmışdı.

Yük və yaralı döyüşçülər vertolyota qaldırıldı, vertolyot səmaya qalxdı. Aşağıda isə mücahidlərin cəsədləri və sağal- maqları qeyri - mümkün olan ağır yaralılar, bir də heyvan cə- sədləri qaldı...

Çox vaxt döyüşdən sonra ağır, müalicəsi mümkün olma- yan yaralıları, əziyyət çəkməməsi xatirinə güllə ilə vurardılar. Belə bir göstəriş - əmr isə verilməmişdi.

Elşad Şabanovun qrupu əvvəl əyalətin mərkəzi olan Fəyzabad təyyarə meydanına gəlir. Orada yaralılar və qrupun başqa üzvlərini endirdikdən sonra, E.Şabanov qrupun koman- diri Rəfiq Maqsud və bir neçə inanılmış döyüşçü ilə təcili Kun- duza uçurlar. Təyyarə meydanında onları SSRİ DTK-nın Kabul şəhərindəki nümayəndəliyinin məsul üzvləri qarşılayırlar. Yük onlara təhvil verilir. Onlardan biri, yaşlı, mülki paltarda olan şəxs Elşad Şabanova təşəkkürünü bildirərək, deyir ki, “sizin rəhbərliyinizlə keçirilən bu müvəffəqiyyətli əməliyyat haqda Mərkəz artıq xəbərdardır. Sizin rəhbər olduğunuz bu əməliyyat bizim gözlədiyimizdən də daha uğurlu oldu.” Elşad cavabında: “Sovet İttifaqına xidmət edirəm!” - dedi. Həmin şəxs Elşadın əlindən

tutaraq, çiyinlərini qucaqladı. Əsgərlər yükü təyyarəyə daşıdılar.

Pilotların və Kunduzda yerləşən SSRİ DTK-nın əməliyyat qrupunun əməkdaşlarının - müşavirlərin təklifinə baxmayaraq, Elşad öz qrupu - əfqan döyüşçülərindən ayrılmır, onlarla birlik- də təyyarə meydanındakı əfqanlar üçün nəzərdə tutulan müvəq- qəti gecələmə evində səhəri gözlədi. Səhər Sovet İttifaqından göndərilmiş ərzaq yardımını aparan "Mi - 6" vertolyotu ilə Bədəxşana - Fəyzabada qayıtdı.

Bir gün istirahətdən sonra tibb məntəqəsindəki yaralı döyüşçülərə baş çəkir.

E.Şabanov iş yoldaşları - digər müşavirlərlə səhər XAD-a gedir, öz tabeliyində olan şöbənin əməkdaşlarının fəaliyyət-

lərinə köməklik göstərir, müəyyən göstərişlər verirdi. Sonra qa- lan vaxtını əməliyyat batalyonunun təlimlərinin keçirilməsinə, döyüş hazırlıqlarının mükəmməlləşdirilməsinə, mənəvi, fiziki hazırlıqlarına yönəldir. Onlara hər bir şəraitdə, qarlı, dumanlı, yağışlı hava şəraitində, qaranlıq gecədə vuruşmağı, xüsusi əmə- liyyatları yerinə yetirməyi bacarmaq üçün müntəzəm təlimlər keçir.

Həm də özü keçmiş mücahidlərdən bəzi şeyləri, ulduz- lara, otlara, təpəliklərə, bitki və ağaclara görə cəhətləri, havanın necə olacağını, istiqaməti və s. hərbi əməliyyatda lazım olacaq detalları təyin etməyi öyrənir. Keçmiş əfqan səhra komandir- lərinin əksəriyyəti koordinatlar, xəritə ilə işləmək bilmirdi. Müşavir Elşad Şabanov onlara xəritə ilə işləməyi öyrədir, onlar isə öz "xəritələri" ilə müşaviri tanış edirdilər.

İstirahət günləri (cümə günü) döyüşçülər soyuq olmasına baxmayaraq, dizə qədər dağ çayı Kokça çayına girərək, hazır- ladıqları aşağısı qurğuşunlu torla daşların altından çay balığı tutar, müşavirlərini də balığa qonaq edərdilər. Arabir Elşad da onlarla gedər, kənarda durub, onların balıq tutmaqlarına baxar- dı. Bu vaxt mühafizəçilər onu gözdən qoymaz, qoruyardılar. Feyzabaddan 1 km aralı, hər yer təhlükəli idi. Banditlər hər yerə burunlarını soxmuşdular. Mərkəzdən hava meydanına 6 -

7 km idi. Silahsız, 5 - 10 nəfərsiz bu yolu qət etmək çox təhlükəli idi. Çayın sol sahilinə 1 - 2 km yaxınlıqda olan dağın ətəyində Mortəzanın rəhbərlik etdiyi 10 - 15 nəfərlik terrorist qrupu fəaliyyət göstərirdi. Yolları minalayır, hava meydanına gedən dövlət nəqliyyatına atəş açaraq, dağlara çəkilirdilər.

Elşad Şabanov XAD-ın keçmiş illik planlarına diqqət yetirib görmüşdü ki, hər il bu terrorist qrupun zərərsizləşdiril- məsi üçün tədbirlər planı hazırlanmış, amma yerinə yetiril- məmişdir. Deyilənə görə, Mortəzanın qurupu bir neçə dəfə So- vet əsgərlərinin mühasirəsinə düşmüş, ancaq məharətlə aradan çıxa bilmişdilər. Onların əsas hədəfi Sovet qoşunları idi. XAD- ın rəhbərliyinə Mortəzanın qrupunun məhv edilməsi Elşad

tərəfindən təklif edilmiş, lakin XAD-ın rəisi polkovnik Rəfiq Müəllim Cəlil gülümsəyərək demişdi ki, biz bir məktəbdə oxumuşuq, onu hər zaman məhv etmək olar, bizim qarşımızda dayanan əsas düşmənimiz Mövləvi Cəlildir.

Elşad Şabanov yorulmadan batalyonu bu döyüşə hazırla- yır, Mövləvi Cəlil və onun hərbi birləşməsi - bandası barədə kəşfiyyat məlumatları əldə edərək, döyüşün gedişini götür - qoy edirdi.

Bir gün axşam qaranlıq düşəndə atəş səsləri eşidilməyə başladı. Bir azdan isə mərmilərin partlayışı eşidildi. Həyətdə keşik çəkən sovet əsgərlərindən biri evin damına qalxaraq qışqırdı: “Elşad Yusifoviç, deyəsən, Mortəzanın bandası Sovet hərbi hissəsini raket atəşinə tutub.” Elşad, digər müşavirlər Konkin Volodya, Sergey İvanov və 2 nəfər də əsgər evin damına qalxdılar. Həqiqətən, Kokca çayının sağ sahilində yerləşən Sovet hərbi hissəsini Mortəzanın doğma kəndinin yaxınlığındakı dağdan raket, qumbaraatan və DŞK-dan - iri çaplı pulemyotlardan atəşə tutmuşdular. Qaranlıq olduğu üçün uçan işıqsaçan mərmilər səmanı işıqlandırırdı. Atəş yarım saatdan çox çəkdi. Sonra isə sakitlik çökdü. Birdən elə bil yer guruldadı. Hərbi hissədən dağ istiqamətində “Qrad” qurğusun- dan atəş başladı. Göy qaranlıqda elə bil yanırdı. Atəş 20 də- qiqəyədək çəkdi. Və yenidən sakitlik çökdü. Müşavirlərə səhər Təhlükəsizlik

İdarəsində məlumat verilir ki, Mortəzanın terrorist qrupu hərbi hissəni atəşə tutur, nəticədə əks tərəfdən zərbə endirilir. XAD-ln əməkdaşları bildirirlər ki, hərbi his- sədən qorxub - qaçmış toyuq - cücə, donuzlar şəhərin kənarına gəlib çıxıblar.

Günortaya yaxın hərbi hissədən Xüsusi Şöbənin əmək- daşları Təhlükəsizlik İdarəsinə gəlirlər və əməkdaşların məlu- matlarını təsdiqləyirlər. Əlavə edirlər ki, insan itkisi yoxdur, lakin dağıntı var, iki nəfər tibb bacısı qorxudan yıxılıb, əzilib- lər. Bir də gülərək əlavə edirlər ki, ərzaq çatışmazlığı əmələ gəlib, donuzların bir hissəsi hərbi hissədən qaçıb, həmçinin

toyuq - cücə də. XAD-ın əməkdaşları onlara bildirdilər ki, bu heyvanlardan bir hissəsi gəlib şəhərə girib.

Müşavirlər Mortəzanın bu hərəkətini XAD-ın rəisi Cəlilin üzünə çox qabartmadılar. Rəis isə bir - iki gün üzə çıxmadı. Ancaq, o, təklikdə olanda Elşad Şabanova dedi: “Yoldaş mü- şavir, o, sizi artıq yaxşı tanıyır, cəsur döyüşçü olduğunuz üçün sizə rəğbət bəsləyir.” Elşad bu sözlərin nə demək olduğunu anladı. Orduda, dövlət strukturlarında bu müharibədə öz maraqlarını güdən çox idi. Və bunlar açıq düşməndən daha təhlükəli idilər.

Sərhəddə, ona yaxın ərazilərdə Mövləvi Cəlilin nəzarə- tinin güclənməsi, dövlətmeylli əhali yaşayan məntəqələrə hücu- mu, dövlət və partiya fəallarına terror aktlarının intensivləş- məsi, dövlətə - yeni hakimiyyətə qarşı düşmən fəaliyyəti, azğınlaşması Mortəzanın törətdiyi hadisəni kölgədə qoyurdı. Ona qarşı əməliyyat ikinci plana keçdi.

MÖVLƏVİ CƏLİL

Mövləvi Cəlil Badəxşan vilayətindən olub, B.Rəbbaninin məsləkdaşlarından idi. Sovet və Əfqan Ordusuna qarşı vuruşan ƏİCP-nin ümumi

komandanı olan Əhməd şah Məsudun yaxın adamı idi.

Mərkəzlə və XAD-ın rəhbərliyi ilə razılaşdırıldıqdan sonra, ona qarşı keçiriləcək əməliyyatın planı tərtib olundu. Burada Sovet sərhədçi aviasiyasının köməyi də vacib idi. Odur ki, plan onlarla da razılaşdırılmışdı. Hərə öz vəzifəsini bilirdi.

Əməliyyatlar Elşad Şabanovun müşavirliyi və rəhbərliyi, XAD-ın rəisi, polkovnik Müəllim Cəlilin və Maqsudun komandirliyi ilə, 600 nəfər döyüşçünün iştirakı ilə başladı. (2 - 3 gündən sonra Moəllim Cəlil Feyzabada - XAD-a qayıtdı). Döyüş əməliyyatlarına, planlaşdırıldığı kimi, sərhəd qoşun- larının aviasiyası cəlb edildi.

Mövləvi Cəlil ona qarşı döyüş əməliyyatların aparılacağı haqda məlumatı olduğu barədə E.Şabanova çatdırılmışdı. Lakin sonra məlum oldu ki, o, buna yaz aylarında qarın əriməsi və soyuqların ötüşməsindən sonraya hazırlaşırmış. Qarın yağdığı, soyuqların düşdüyü, dağ keçidlərinin bağlandığı, "Şurəvi"-nin Yeni İli - 1986-cı ili qarşılayacağı bir məqamda - dekabrın 29- da bu hücumu gözləmirdi. Qarın yağdığı, soyuqların düşdüyü ilə bağlı düşməndə döyüş həvəsi aşağı düşmüş, onlarda laqeyd- lik və arxayınlıq əmələ gəlmişdi. Heç kəs ağlına gətirməzdi ki, bu hava şəraitində döyüş başlasın. Yaranmış hava şəraiti ilə əlaqədar olaraq mücahidlər ərzaq qıtlığı çəkirdilər.

Elşad Şabanov aviasiyanın hava - raket - pulemyot atəşlə- rindən sonra qəflətən hücuma keçməyi planlaşdırmışdı. Hər şey ölçülüb - biçilmişdi. Düşməni Kokca çayına sıxmaq, mühasirə- yə salıb məhv etmək. Çayın eni 60 - 70m, dərinliyi 2m çatırdı. Belə hava şəraitində onu üzüb keçmək, deməkolar ki, mümkün deyildi. Dağ çayı Kokça çox iti axırdı. Çayın o biri sahilindəki dağ keçidləri də qarla örtülərək, keçilməz olmuşdu.

Hava şəraitinin sərt olmasına baxmayaraq, XAD-ın döyüşçülərinin əhval - ruhiyyəsi yüksək idi. Onların əksəriyyəti döyüşlərdə bərkdən - boşdan çıxmış, bir sıra döyüş əməliyyat- larından sonra müşavirləri Elşad Şabanova inanır, onun

əmrlə- rini həvəslə yerinə yetirir, bir insan kimi hörmət bəsləyirdilər. Elşad da öz növbəsində, müşavirlikdən əlavə, insan kimi hamıya şəxsi problemlərində kömək etməyə, qayğılarını çək- məyə çalışırdı.

Dekabrın 29-u səhər saat 6 radələrində, aviasiyanın hava zərbələrindən sonra düşmənin gözləmədiyi hücum başladı. Mücahidlərin hücumu gözləmədiklərindən və hələ yuxulu olduqlarından, batalyon müvəffəqiyyətlə irəlilədi, kəndə daxil oldu. Elşad döyüşçülərlə bir sırada olub, öz göstərişlərini verir- di. Qarşıda duran əsas məsələ əhaliyə toxunmamaq, Mövləvi- nin qərargahını ələ keçirmək idi. Artıq kəşfiyyat bölüyünün xüsusi qrupu qərargahın yerini təyin etmişdi. Əvvəl nə baş

verdiyini anlamayan mücahidlər yarım saatdan sonra güclü müqavimət göstərməyə başladılar. Lakin hava zərbələri, batal- yonun gözlənilməz hücumu, döyüşçülərin igidliklə vuruşması düşmənin müqavimətini qırır, sıralarını seyrəldirdi.

Günortadan bir az keçmiş qərargah alındı, Mövləvi Cəlil atışmada öldürüldü. Mücahidlər mühasirədən çıxmağa, yaxın kışlaklarda əhali arasında gizlənməyə, bununla da canlarını qurtarmağa çalışırdılar. Dağ tərəfə qaçmaq istəyənlər isə Kokçanın sularına qərq olur, qanları sulara qarışırdı. Döyüş çox amansız bir şəkil almışdı. Hər iki tərəfdən itki var idi. Lakin mücahidlər daha çox itki verirdilər. Xəbər verildi ki, bandanın qazısı Molla İbadulla 30 - 40 nəfərlə, güclü müqavimət göstərə- rək, gizli yolla mühasirəsən çıxıb. Sonra məlum oldu ki, dağ kəndində müəyyən lağımlar varmış. Bu yolla Qazının müha- sirədən çıxması baş tutub. Ətrafında olan döyüşçülərlə birlikdə düşmənlə vuruşaraq, güllə altında ora çatmaq istəyən Elşad Şabanovun yaxınlığında mücahidlərin uzaq məsafədən atdıqları mərmi düşür, partlayan mərminin qəlpəsi Elşad Şabanovun dizdən yuxarısını yaralayır. O, əvvəl bunu hiss etmir, sonra özünü saxlaya bilməyərək, iki diz üsrə sərt qayaya dəyir. Bu vəziyyətdə gücünü sağ qoluna verir, qolu dirsəkdən zədələnir.

Axşam qaranlıq düşənə yaxın atışma, döyüş başa çatır. Məhv edilən mücahidlərdən əlavə, 30-dək silahlı əsir düşür. Bunlardan 15 - 20-si 16 yaşlı cavanlar olur.

Çadırda, lampa işığında batalyonun ara həkimi - keçmiş mücahid qəlpəni Elşad Şabanovun ayağından çıxarır, öz adətləri ilə ora dərman - mumiya qoyur. Çıxmış qolunu isə yerinə salaraq nazik taxtalarla sarıyır.

Artıq qələbə əldə edilmişdi. Mövləvi məhv edilmişdi. Lakin onun dini rəhbəri - ideoloqu, cinayətkar Qazı isə başına yığdığı adamlarla qaçmışdı.

Səhər döyüşçülər bir nəfər 13 yaşlı oğlan uşağını Elşadın yanına gətirirlər. Uşaq qışqıraraq bu sözləri təkrar edir: "İnan- mıram, siz məni tutanmazsınız, inanmıram."Uşağı dindirəndən

sonra məlum olur ki, qaçmış Qazı uşağın gözlərinə sürmə çək- miş, cibinə dua qoymuşdu ki, sən islamın düşmənlərinin yanına get. Sən o kafərləri görəcəksən, onlar səni yox. Çalış onların müşavirini öldür. Bunun üçün uşağa silah və zəhər də vermişdi.

Elşad komandirlərin uşağı cəzalandırmaq təkliflərini rədd edir və zarafatla - Məni öldürməyə gəlib, məsələni də mən həll edim - deyir. Sonra uşağa, çıx get, gördünmü, Qazı səni alda- dıb, ona çatdır ki, mən müşaviri gördüm, o namaz qılır, kafir deyil.

Elşad uşağı yola salmağı və onun vasitəsi ilə Qazının olduğu kışlakı tapmaq tapşırığını verir.

Sonra ətrafındakı komandirlərə deyir: Siz əziyyət çəkməyin, Qazı qəddardır, onsuz da uşağı öldürəcək (günahı onun boynuna). Qoy, o, bu günaha da batsın.

Belə də oldu. Kəşfiyyatçıların gətirdiyi məlumata görə Qazı və silahlı tərəfdarları bir neçə kışlaqda qərar tutublar. Göndərdiyi uşağı isə Qazı edam etdirib.

Qazı hər döyüşdən əvvəl mücahidlərə təlimatlar verər, "şurəvi"-yə, kafirlərə, inqilabi dövlətə qarşı dini çıxışlar edər, onları cihada çağıraraq,

qələbənin labüd olduğuna inandırardı. Hər bir islam döyüşçüsü cəsarətli olmalı idi. Qorxaqları isə ancaq ölüm gözləyirdi. Mücahidləri şüarı belə idi: "Biz ancaq Allahın yolunda cihad etdik. Ümidimiz ancaq Allahadır.Qələbə yaxındadır!" Döyüşdən sonra Qazı sıraya düzülmüş döyüşçü- lərin qabağından keçər, ovucunda tutduğu xırda daşları bir - bir döyüşdə qorxaqlıq göstərən mücahidin üstünə atardı. Üstünə daş atılan döyüşçü sıradan çıxarılar və hamının gözü qabağında edam olunardı. Bu, hamıya dərs olur və düşmənlə ölüm - dirim savaşına girməyə sövq edirdi. Qazı deyirdi ki, şəhid olmuş hər bir mücahid cənnətə düşəcək.

Elşadın yaralanması barədə məlumat alan mərkəzin onun geri dönməsi barəsində səyinə baxmayaraq, o, etiraz edərək xa- hiş edir ki, əməliyyatı axıra qədər davam etdirsin. O, ağacla

güclə yerisə də özünü döyüşçülərin qabağında sındırmır, güm- rah aparır, bununla da onların döyüş ruhunu yüksəldirdi.

Qazıya qarşı bölmə komandirləri ilə əməliyyat planı ha- zırladıqdan sonra dekabrın 31 - Yeni il axşamı kışlakların Qazı- nın dəstəsindən təmizlənməsi əməliyyatı başlanır. Əməliyyat 1 həftəyə yaxın davam edir. Xeyli sayda düşmən məhv edilir, kəşfiyyat qrupu Qazı birmərtəbəli evin damından tullanıb aradan çıxmaq istəyərkən onu saxlaya bilir.

1986-cı ilin yanvarın 6-da Mövləvi Cəlilə qarşı aparılan döyüş əməliyyatı başa çatır. Rəsmi rəqəmlərə görə düşmən Mövləvi Cəlillə birlikdə 320 nəfər itirir. Əsir mücahidlər - cavanlar əyalətin mərkəzinə gətirilir və Kokça çayı kənarındakı həbsxanaya yerləşdirilir. Sonradan əsgər yaşı çatanlar Əfqan Ordusuna hərbi xidmətə göndərilir.

Bu döyüş polkovnik Elşad Şabanovun Əfqanıstanın Bədəxşan vilayətində sonuncu döyüşü olur.

Polkovnik Elşad Şabanovun Sovet sərhədçiləri ilə görüş- lərindən birində ona məlumat verirlər ki, Dağlıq Bədəxşanda, sərhəddə, Murqab sərhəd

dəstəsində siyasi şöbədə baş leytenant Cəlil Xəlilov adlı azərbaycanlı zabit xidmət edir. Sərhədçilər onu savadlı, hazırlıqlı və cəsarətli bir zabit kimi xarakterizə edirlər. Düşmənlərlə sərhəddə baş verən silahlı toqquşmalarda iştirak etmiş, özünü qorxmaz bir hərbçi kimi göstərmişdir.

Elşad Şabanov planlaşdırmışdı ki, həmvətəni ilə gö- rüşsün, lakin Mövləvi Cəlilin silahlı bandit birləşməsinə qarşı aparılan döyüş əməliyyatlarında yaralandığı üçün buna imkan olmur.

Lakin 7 - 8 il keçdikdən sonra Elşad Şabanov Azərbaycan Milli Təhlükəsizlik Nazirinin Xüsusi Tapşırıqlar və Hərbi Mə- sələlər üzrə köməkçisi olduğu dövrdə Cəlil Malik oğlu Xəlilovla tanış olur. Onun göstərdiyi xidmətlərin - keçmiş So- vet qoşunlarından sərhədin qəbul edilməsində yüksək şücaət göstərməsi, 1993 - 1994-cü illərdə Talış - Muğan separatçıları- na qarşı mübarizəsinin canlı şahidi olur. Mayor Cəlil Xəlilovun

dövlətçiliyə dəyərli və əvəzsiz xidmətləri barədə Elşad Şabanov Milli Təhlükəsizlik Nazirliyinin rəhbərliyini məlumatlandırır.

Bu gün polkovnik Cəlil Xəlilov həm alim, həm veteran- ların dayağı və dəyərli bir ziyalı kimi Respublika Veteranlar Təşkilatının sədr müavini kimi hamının hörmətini qazanıb. Həm respublikada, həm də xarici ölkələrdə keçirilən tədbirlərdə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqla dəyərli işlər görür. Cəlil Xəlilova böyük ümid bəsləyirik. İnanı- rıq ki, bundan sonra da o, Vətənə layiqli xidmət göstərəcək.

KUNDUZ-KABUL

Elşadın ayaqlarında şiddətli ağrılar başlamışdı. Burada isə ara həkimlərinin müalicəsindən başqa bir imkan yox idi. Aya- ğındakı yara mumiyanın təsiri ilə sağalmağa başlamışdı. Lakin zədələnmiş diz qapaqları yeriməyə imkan vermirdi. Kabuldan müalicəyə getmək üçün xəbər gözləyirdi.

Qazının taleyinin də həll olunması məsələsi qalırdı.XAD- ın rəhbərliyi. Mərkəzlə razılaşdırdıqdan sonra, Qazıya Kabul və yerli radio ilə çıxış edərək silahlı müxalifətin komandirlə- rinə silahlı müqavimətə son qoymaq, qardaş qanının axıdılma- sını dayandırmaq, dövlətin tərəfinə keçmək təklifi ilə müra- ciyyət etməsi planlaşdırıldı. Bu məqsədlə Elşad və XAD-ın rəhbərliyi həbsxanaya - Qazının saxlandığı kameraya düşürlər. Kamera adlanan bu məhbus saxlama otağı yerin altında düzəl- dilmiş yarıqaranlıq bir qazma idi. Qazı namaz qılırdı. İçəri gi- rənləri görcək ayağa qalxmaq, namazı saxlamaq istədi. Lakin Elşad buna imkan vermədi, onun çiynindən yerə basaraq, na- mazı davam etdirməyi işarə etdi.

Qazı namazı bitirdikdən sonra ona nə edəcək olduğu elan edildi. O, məğrur vəziyyətdə dayanmağa çalışırdı. Təklifi din- lədikdən sonra o, bu təklifi yerinə yetirməyəcəyini söylədi. İti baxışları ilə Elşad Şabanovu süzdü, onların baxışları tokkuşdu, sonra nəzərlərini onun sarıqlı qoluna və əl ağacına dikdi və ona

müraciətlə dilləndi: “Müşavir Ərşad, (mücahidlərin əksəriyyəti Elşad Şabanovu qiyabi tanıyır, onu “Müşavir Ərşad” adlan- dırırdılar), siz bacarıqlı komandir, qorxmaz döyüşçüsünüz. Siz gərək mücahid olaydınız. Biz bu hücumu əsla gözləmirdik. Al- lah bizi düşmən kimi qarşılaşdırdı. Amma eşitmişəm ki, siz mərd və sözünün üstündə duran adamsınız. Məni Kabula gön- dərməyin, burada - Vətənimdə cəzalandırın və bir müsəlman kimi dəfn edin.”

Bu Elşadla Qazının birinci və axırıncı görüşü oldu.

Əldə olunan dəqiq məlumata görə, Qazı otuza yaxın gənci edam etmişdi. Müharibə şəraitinin qanunlarına görə onu ancaq bir cəza gözləyirdi.

Elşad Şabanov onun xahişini yerinə yetirdi. Ancaq düş- mən də olsa, Vətən, əqidə yolunda məhv olan Qazını, onlarla onun kimilərini heç vaxt unuda bilmədi.

Həmin gün Elşad əməliyyat qrupunun qərargahına gəldi. Ona xəbər verdilər ki, mərkəz müalicəyə icazə verib, sabah Kunduza, oradan da Kabula uçacaq.

(Feyzabaddan Kabula bir- başa təyyarə uçmurdu.)

Səhər təyyarə meydançasına gələrkən Mortəzanın kəndini seyr etdi və öz - özünə mızıldandı: "Həmişə yolunda yaşıl işıq yansın, Mortəza, deyəsən biz üz - üzə gəlməyəcəyik." Onu fikirdən sürücünün "Gəldik çatdıq" sözü ayırdı.

Hərbi kəşfiyyatçılar və azərbaycanlı Əlibaba ilə salamat- laşdıqdan sonra vertolyota qalxdı.

Hündür dağlar bir xatirə kimi arxada qalırdı. Elşadın ürəyinə elə bil dammışdı ki, bir də buralara qayıtmayacaq. Bu- rada keçən narahat həftələr, aylar, qızğın döyüşlər, Bədəxşanın hündür, qarlı dağları Kokcanın dumduru, soyuq suyu, şəhid olmuş gənc döyüşçülər, 14 - 15 yaşlı döyüşçü - mücahidlər onun beynində əbədi həkk olundu, həyatında dərin, qəmli izlər buraxdı.

Kunduz təyyarə meydanında Elşadı DTK-nın müşavirləri qarşıladılar və qərargahlarına apardılar. Onların çoxu Elşad

haqda eşitmişdi. Zona üzrə baş müşavirlə görüşdən sonra, o, bəzi müşavirlərlə - milliyyətcə tatar olan, Özbəkistanlı Rovkat, Gürcüstanlı Valeri Çeidze və başqaları ilə tanış oldu. Onların əksəriyyəti Elşaddan 4 - 5 yaş böyük idilər. Adını eşidib, üzünü görmədikləri "Müşavir Ərşad" haqda çox əfsanələr eşitmiş- dilər.

Əməliyyat qrupunda müşavirlərdən yeganə müsəlman olan Səmərqəndli Rovkat onu gecələməyə dəvət etdi. Səhər ayrılanda ona təzə bir özbək xalatı - çapan verib dedi: Yaralısan, hava da soyuqdur, bu xalatı geyin, sənə bağışlayıram. Çapan təptəzə idi. Geyilməmişdi. Elşad əvvəl götürmək istəmədi, ancaq Rovkadın təkidindən sonra çiyninə saldı. Cibindən xırda bir daş parçası çıxarıb, ona uzatdı: "Məndən yadigar olsun, lazuritdir. SSRİ-yə qayıdandan sonra üzüyə qaş kimi saldırarsan, görüşümüzü xatırlayarsan."

Rovkat onu təyyarə meydanından Kabula yola saldı. Sovet təyyarəsi təyyarə meydanına enərkən raket əleyhinə xü- susi nurslar buraxmağa başladı. Təyyarə sağ - salamat iki dağın əhatəsində olan Kabul təyyarə meydanının təkcə yük

təyya- rələri olan hissəsinə endi.

Məlum oldu ki, axır vaxtlar mücahidlər xeyli fəallaş- mışlar. Kabul təyyarə meydanını, şəhərin sovet hərbi hissələri və mülki mütəxəssislərin yaşadıqları ərazini raket atəşinə tutublar. Minik avtomobillərini minalayaraq dövlət idarələrinin, nazirliklərin yaxınlığında müəyyən məsafədə onu partladır, günahsız insanların qanını axıdırdılar. Köhnə mikrorayon adlı sovet və əfqan ordusunun zabitlərinin yaşadıqları ərazini atəşə tutur, marketləri partladırdılar.

Elşad Kabulda bir neçə vaxt hərbi hospitalda, sonra isə nümayəndəliyin tibb məntəqəsində müalicə olundu. Axşamlar isə digər əməkdaşlarla birlikdə müvəqqəti sakini olduğu "Taqiyevski villa" deyilən DTK-nın qonaq evinə qayıdırdı. Bu qonaq evunə ona görə "Taqiyevski villa" deyirdilər ki, inqi- labın ilk illərində bu 2 mərtəbəli evdə azərbaycanlı, DTK-nın

zabiti Zülfüqar Tağıyev öz ailəsi ilə yaşamışdı. Ev imkanlı bir əfqanın olmuş, o, çevrilişdən sonra xaricə mühacirət etmişdi.

O, burada çox qala bilmir. Həyəti qoruyan avçarka - it bu saqqallı, üst - başından əfqan iyi gələn müşaviri heç cür qəbul etmirdi. Bu, xüsusi hazırlanmış itlər iyindən və paltarlarından insanları seçirdilər. Elşadın yerini köhnə mikrorayonda olan 5 mərtəbəli binada yerləşən qonaq evinə dəyişdilər.

Elşad Bədəxşanla, orada keçirdiyi döyüşlərlə bağlı həyat tərzindən sonra Kabul həyatına, buradakı insanlara uyğunlaşa bilmirdi. Adamlardan uzaq olmağa çalışır, tənhalıq axtarırdı. Kabul elə bil onu sıxırdı. Elə bil vuruşmaq istəyir, hiss edirdi ki, onda döyüş sindromu əmələ gəlməkdədir.

Nəhayət onu Kadrlar İdarəsinə - rəhbərliyə dəvət etdilər. Kadrlar İdarəsinin rəisi Nikolay Karteyeviç bildirdi ki, onun bir də Bədəxşan vilayətinə qayıtması məqsədə uyğun deyil. Və onun müavini Dosenko Elşadın fikrini soruşdu. O, cavabında "Mən əsgərəm, əmr gözləyirəm" - dedi, sonra isə əlavə etdi: "Səhhətim yaxşıdır, xahiş edirəm məni hərbi əməliyyatların getdiyi "qaynar nöqtələrdən" birinə göndərəsiniz."

Belə bir "qaynar nöqtə" Əfqanıstanın cənubunda yerləşən, Pakistan sədhədindəki ərazisinin 70%-dən çoxu mücahidlərin nəzarətində olan Zabol vilayəti oldu.

O vaxt məzuniyyət, vəziyyətlə əlaqədar, iki hissəyə bölünürdü: 15 sutka və 30 sutka. Elşada 15 sutkalıq SSRİ-yə - Vətənə məzuniyyət təklif olundu. 3 ildə xüsusi kurslarda oxu- duğu və Əfqanıstanda xidmət elədiyi illər ərzində Elşad ailəsi ilə 2 dəfə görüşmüşdü. Həyat yoldaşı və 2 körpəsi Vətəndə - Qaxda idilər. 15 sutkanın 1 həftəsi yola gedəcəkdi, bir də ki, yaralı vəziyyətdə ailəsinin üstünə getmək istəməzdi. O, etiraz etdi.

Bir - iki gün nümayəndəliyin müəyyən şöbələrində ola- raq, yeni təlimatlarla tanış oldu, məsul işçilər ilə görüşüb lazım- lı təlimatları aldı. Zabol vilayəti, orada yaranmış əməliyyat şə- raitini əks etdirən sənədlərlə tanış oldu.

İkinci günün axırında əməliyyat qrupu üçün nümayəndəli- yin mağazasından apara biləcəyi qədər ərzaq aldı, karton qutulara qablaşdırdı.

Əfqanıstanın cənubundakı bir neçə əyalətdə yerləşən əməliyyat qruplarının mərkəzi Qəndahardan 20 - 25 km aralı, təyyarə meydanının yaxınlığında yerləşirdi. Bu mərkəzə Zabol vilayəti də daxil idi.

Hava şəraiti ilə əlaqədar, təyyarələr Qəndahara uçmadı. Elşad iki dəfə təyyarə meydanından qayıtdı. Üçüncü gün onu Sovet Ordusunun təyyarəsi ilə yola saldılar. Təyyarə meydana endi. Hərbçilər hərə öz adamlarını qarşılayırdı. Elşadı isə qarşılamağa çıxan yox idi. Hava limanında qarmaqarışıqlıq idi. Bir tərəfdə göyə qalxan hərbi "SU" markalı döyüş təyyarələri, vertolyotlar, digər tərəfdə döyüşdə həlak olmuş əsgərlərin tabutları, yaralılar...

Elşad özünü itirmədi. O, əfqan paltarında idi.Əlində təsbeh, çiynində avtomat silahı vardı. Girişdə əfqan zabitləri ilə görüşdükdən sonra özünü təqdim edərək dedi ki, mənə XAD-ın təyyarə meydanı təhlükəsizliyi üzrə çalışan əməkdaşlar lazım- dır. Zabit saqqallı, barmağında mücahid üzüyü, əlində təsbeh olan Elşadı süzdü, kim olduğunu deyəsən, başa düşdü və dedi: "Rəfim, rəfiq

müşaver", yəni "Gedək yoldaş müşavir".

XAD-ın əməkdaşları bildirdilər ki, onlara müşavir Ərşadın gələcəyi haqda deyilib. Ancaq onlar müşaviri sabah gözləyirdilər. Elşad dedi ki, gedək, qutuları götürək. Əmək- daşlar bildirdilər ki, minik avtomobili var, ancaq yanacaqları yoxdur - "Mutər həsf, tel nist" - dedilər. Elşad gülümsəyib əlini cibinə atdı, pulu çıxarıb, əməkdaşa verdi. Əməkdaş az bir za- manda "UAZ" markalı maşınla gəldi, qutuları maşına yığıb, yo- la düzəldilər. Sən demə müşavirlərin qərargahı 400 - 500 met- rlikdə imiş.

Birmərtəbəli binanın yanında maşını saxlayıb, yükləri eyvana yığdılar. Otaqdan rus millətindən olan, mülki paltarda bir nəfər çıxdı, əfqanlarla nə isə danışdı, yenidən otağa girdi.

Elşad eyvanda, kağız qutuların yanında yerdə oturdu və başını divara söykədi.

Saat 14:00 - 14:30 radələri olardı. Binanın yanında iki minik maşını - "QAZ - 24" və "Niva" dayandı. Maşından silah- lı, mülki paltarda olan DTK əməkdaşları - müşavirlər düşdülər və eyvana tərəf gəldilər. Həmin otaqdakı şəxs tez otaqdan çıxdı, Elşadı göstərib dedi: Bilmirəm bu "dux" kimdir, əfqanlar, XAD-ın əməkdaşları gətirdilər.

Qabaqdakı 40 - 45 yaşlarındakı şəxs əfqan paltarında olan Elşada Şabanova yaxınlaşdı və onun əlini sıxdı. Özünü təqdim etdi - Zonanın baş müşaviri polkovnik İvanov və əlavə etdi - neçə gündür sizi gözləyirik və həmin şəxsə dedi: yoldaş Andrey, bu adam "dux" deyil, bu adam bizim eşitdiyimiz və gözlədiyimiz "Müşavir Ərşad" - Elşad Şabanovdur, niyə içəri dəvət etməmisən? (Sovet zabit və əsgərləri mücahidləri "dux" - yəni "ruh" adlandırırdılar. Elə bil ki, onlar gözəgörünməz idilər.)

Baş müşavir başqalarını da Elşadla tanış etdi. Burada El- şad Azərbaycan DTK-nın nümayəndəsi Mahirlə rastlaşdı. Mahir əvvəllər Azərbaycan DTK-nın Gəncə şəhər şöbəsində işləmişdi.

Zona baş müşaviri ilə görüşdən və söhbətdən sonra Elşad Mahirin otağında gecələdi. Mahir ona söylədi ki, Zabol olduqca təhlükəli yerdir. Bütün ətraf bandaların, terrorçuların əlindədir. Əməliyyat qrupu çətin şəraitdə fəaliyyət göstərir. Həftinin 2-3 günü raket atəşi altındadırlar. Bir sözlə, sən, ölümə gedirsən.

Belə sözləri Elşad artıq çox eşitmişdi. Zonanın baş müşa- viri ilə şərait barəsində ətraflı söhbət edilmişdi. Problemlərdən biri ora gedib çıxmaq idi. Qəndəhardan ora getmək həmişə çətin idi. Qəndahar - Kabul trası problemli məsələ olaraq qalırdı, mücahidlərin nəzarəti atında idi. Əfqan vertolyotları ora çox təsadüfi hallarda uçurdu. Ümid təkcə Sovet Ordusunun Xüsusi Təyinatlılarının vertolyotlarına qalırdı. Xüsusi Təyinat- lıların Qəndahardan aralı "Şadco" deyilən bazaları vardı. Ora

isə təyyarə meydanının yanında yerləşən hərbi hissənin vertolyotları uçurdu. Bu vertolyotlar təsadüfən birbaşa Zabulun mərkəzi Kalatada uçurdular. Ora uçmaq təhlükəli idi, risk tələb olunurdu. Sacodan qalxan xüsusi təyinatlıların iki "Mİ - 24" və bir "Mİ - 8" təyyarəsi hava kəşfiyyatına çıxarkən, Kalat ətrafına uçur və lazım olanda "Mİ - 8" orada yükünü boşaldırdı. Hərbi kəşfiyyatçıların yaşadığı yer vertolyot meydançasına yaxın idi. Vertolyotların gələcəyi barədə onlara xəbər verilər və onlar tələsik "UAZ"-la meydançaya gedərdilər. DTK-nın müşavirlə- rinin yolu isə uzaq idi. Elə olurdu ki, onlar meydançaya çata- nadək vertolyot havaya qalxırdı."Mİ - 8" -in meydançada çox qalması riskli idi. Hər dəqiqə düşmənin atəşi başlaya bilərdi.

Fevral ayının axırları idi. Səhər tezdən baş müşavirin özü Elşadla birlikdə hərbi hissənin vertolyot meydançasına gəldi və onu "Şadcoya" - Xüsusi Təyinatlıların bazasına uçan vertolyot- larla yola saldı.

Burada dağlar arasındakı bazada DTK-nın Zabol vilayətindəki əməliyyat qrupunun rəhbəri Boris Konstantinoviç Ratnikov Elşadı gözləyirdi. Elə orada, çox böyük olmayan vertolyot meydançasında onlar görüşdülər və havaya

qalxmağa hazır olan vertolyota mindilər. Ratnikovun belində "Sfeçkina" pistoleti, çiynində isə qarmon var idi. Həmişəki kimi, "Mİ - 8" ortada, "Mİ - 24" - "Krokodil"-lər isə onun ətrafında uçurdu. Vertolyotda Ratnikov və Elşaddan başqa 10 - 15 nəfər xüsusi təyinatlı var idi. Çox aşağıdan - yerdən 3 - 4m hündürdə uçur- dular. Səbəbini soruşduqda Ratnikov dedi ki, ətraf ərazi müca- hidlərin nəzarətindədir. Yüksəkliklər isə iri çaplı pulemyotlar - DŞK qoyulub. Buranın dağları Bədəxşan dağları ilə müqa- yisədə hündür təpəliyə bənzəyirdi.

Yarım saatdan sonra vertolyotlar Kalat yaşayış məntə- qəsinin - əyalətin mərkəzinin üstündə dövrə vurduqdan sonra "Mİ - 8" qurumaqda olan çayın kənarındakı meydançaya endi. "Krokodil"-lər isə havada fırlanır, yerdəki vertolyotun təhlükə- sizliyini qorumaqla, ətrafa nəzarət edirdilər. Ratnikovla Şa-

banov tələsik vertolyotdan endilər. Bunu gözləyən pilot vertol- yotu havaya qaldırdı. Tezliklə vertolyotlar gözdən itdilər. Bun- dan sonra ağ rəngli "Niva" markalı maşın onlara yaxınlaşdı. Maşından arıq, sarışın, üzü çilli, 35 - 38 yaşlarında bir kişi düşərək, onlara yaxınlaşdı, salamlaşdı. Özünü təqdim etdi: Belorusiyadan "Anoka", ləqəbi "Çerik" yəni, "Partizan". Hər üçü gülümsədi.

Maşın meydançadan 600 - 700m aralı, dağ yamacında, çiy kərpicdən inşa olunmuş, hündür qalanın aşağısında yerləşən bir mərtəbəli, çiy kərpicdən tikilmiş, damı palçıqla suvanmış evin kərpic hasarının yanında dayandı.Ratnikov Elşada evi göstərək, "Çatdıq" - dedi, "bu da bizim istirahət evimiz - "Tixiy ujas" ". Əməliyyat qərargahına "Sakit dəhşət istirahət evi" adını Ratnikov vermişdi. Sonradan məlum oldu ki, o, qarmonda yaxşı ifa edə bilir, yaxşı şeirlər yazır.

Ratnikova Elşad Şabanov haqqında məlumat verilmiş, onun şimaldakı fəaliyyətindən bəsh edilmişdi.

Səhər çayından sonra Ratnikov yaranmış əməliyyat şəraiti ilə, əməliyyat qrupunun qarşısında duran, daha doğrusu mərkəzin tapşırıqları haqda ətraflı danışdı. Və ona, təcrübəli əməkdaş kimi, ən əsas və məsuliyyətli sahələr olan 5-

ci terro- rizm və silahlı müxalifətə qarşı mübarizə, 12-ci kəşfiyyat və tayfalarla iş sahəsi həvalə olundu.Əməliyyat qrupunda əməkdaş az, qarşıda duran məsələlər isə çox idi.

Burada vəziyyət Elşad Şabanovun fikirləşdiyindən də acınacaqlı idi. Əməliyyat qrupunun yerləşdiyi əyalət - Zabol - mərkəzi Kalat idi. İnqilaba qədər əyalətdə 350 mindən çox əhali yaşamışdı. Silahlı toqquşmalar başlanandan sonra 200 minə yaxın əhali ev - eşiklərini tərk edərək Pakistana qaçmışdı. Əyalətdə 17 tayfa və qəbilə var idi. Milli tərkibi paştunlar idi. Əyalətin Pakistanla olan sərhədi 67 km idi. Sərhəd açıq idi, qorunmurdu. Pakistandan Əfqanıstana silahlı barışmaz müxali- fət, terrorçular, silah daşınan 7 marşrut Zabul əyalətindən keçirdi. Sərhəddən 5 - 6 km Pakistan ərazisində 3 düşərgə

yerləşirdi. Burada silahlı barışmaz müxalifət üçün döyüşçülər, terrorçular hazırlanır və Əfqanıstan ərazisinə göndərilirdi. Həmin düşərgələrdə SSRİ-yə düşmən ölkələrin müşavirləri işləyirdilər. Əyalətdə 145 bandit birləşməsi fəaliyyət göstərirdi ki, bunlardan da 15-i də qəddarlıq və azğınlıq edirdilər. Prezi- dent Nəcibulla hakimiyyətini qəbul edən yaşayış məntəqələrinə silahlı hücum edir, günahsız əhalini qırır, qadın - uşağa aman vermirdilər. Əhalidən haqq yığır, Kabul - Qəndahar yolunu minalayır, Sovet Ordusunun Əfqan Ordusu ilə Kabuldan Qən- dahara ərzaq, silah - sutsat aparan maşın karvanlarına hücum edir, terror aktı həyata keçirirdilər. Həmin banditlər mütəmadi olaraq, həftədə 2 dəfə əməliyyat qrupunun yerləşdiyi "nöqtəni"

- binanı, əhalini 3 "katyuşa" ilə 3 istiqamətdən, 5 km yaxın- lıqdan atəşə tuturdular. Arabir isə daha da həyasızlaşır, lap yaxınlaşaraq qurumuş çayın məcrasından Elşadgilin evini qrantamyot atəşinə tuturdular.

Elşad əməliyyat qrupuna gəldiyi az müddətdə artıq raket atəşinin ardı - arasının kəsilmədiyinin, intensiv hal aldığının şahidi olmuşdu. Mücahidləri iki gecə hücumu onun rəhbərliyi və iştirakı ilə XAD-ın əməkdaşları tərəfindən

alınmış, mücahidlər itki verərək geri çəkilmişdilər. Bu əməliyyatlardan sonra qrupun rəhbəri Ratnikovun ona hörməti daha da artmış və Elşad haqqında eşitdiklərinə, onun döyüş təcrübəsinə, cəsa- rətinə inanmaya bilməzdi. Hər şey göz qabağında idi. Düş- mənlərə layiqli cavab atəşi vermək üçün, o, qrupa gətirilərək, mütəxəssis olmadığından istifadəsiz qalmış AQS-dən istifadə etdi. Bu silah birinci dəfə Əfqanıstanda istifadə olunmuşdur. O vaxt istifadəsi çox çətin hesab olunurdu. Mücahidlər onu ələ keçirmək üçün çox çalışırdılar. AQS - avtomatik qranat atan silahdır. Onun mərmisi düşərək partlayır, düşdüyü yeri yandıraraq məhv edir. O, bu silahı evin damında münasib yer seçərək yerləşdirmişdi.

Kalatda Sovet vətəndaşlarının sayı az idi. Hərbi kəşfiy- yatçılar və Sarandoy (əfqan polisi) müşavirlər ilə birlikdə 25

nəfər idilər. XAD-ın (Təhlükəsizlik Xidmətinin) ştatında 480 nəfər olmalı idi, ancaq onların sayı 30 nəfər idi. Ən çox əməkdaşı olan Sarandoy (əfqan polisi) idi - 80 nəfər. Ancaq onlara etibar etmək olmurdu. Onların əksəriyyəti düşmənlə - mücahidlərlə yaxın əlaqə saxlayırdılar.

Elşad 14 - 18 yaşlı oğlan uşaqlarından 15 - 20 nəfərlik bir qrup yaratmışçdı. Bu uşaqların demək olar ki, heç kimi yox idi. Valideynləri hərbi toqquşmalarda düşmənin hücumuna məruz qalaraq həlak olmuşdular. Bu yeniyetmələrin döyüşə, hərb sənətinə böyük həvəsləri var idi. Düşməndən intiqam almağa can atırdılar.

Elşad onların təlim - tərbiyəsi ilə yaxından məşğul olmağa başladı. Az bir zamanda müəyyən müsbət nəticələr əldə edildi.

O, həmçinin burada əməliyyat şəraitinin şimalla fərqlili- yini nəzərə alaraq, öz planlarını Rotnikovla razılaşdırdı.

Məqsədi müxtəlif partiyalara mənsub olan, aralarında düşmənçilik, qan davası olan, əraziyə nəzarət üstündə bir - biri ilə toqquşan bandaların gücündən istifadə edərək, mərkəzin əməliyyat qrupunun qarşısına qoyduğu tapşırıqları

yerinə yetirmək idi. E.Şabanov - "Müşavir Ərşad" bunu bacarıqla, az bir müddət ərzində yerinə yetirdi. O, bir sıra silahlı müxalifətin əyalətdə fəaliyyət göstərən rəhbərlərinə yol tapa və onlardan bir neçəsini yola gətirə bildi. Onların da əsas tələbi bundan ibarət idi ki, onların ərazisinə Sovet aviasiyası, qoşunları, xüsusi təyinatlılar tərəfindən hücum olmasın.

E.Şabanovla təmasda olan mücahidlərin silahlı dəstələri özləri ilə düşmənçiliyi olan barışmaz müxalifətin bazalarının, toplandıqları ərazinin, mağaraların, silah ambarlarının yeri ba- rədə məlumatlar müşavirə çatdırır və özləri ürəklə düşmən- lərinin üzərinə hücum edirdilər. Bu zaman qanlı toqquşma baş verirdi.

Elşad bacarığı, səyi nəticəsində Pakistan ərazisində yerlə- şən düşərgələrdə gizli mənbələr əldə etmiş və kəşfiyyat məlu-

matları almaq, düşərgələrdə rəhbərliyə - təlimatçılara qarşı "kəskin" əməliyyat tədbirlərini həyata keçirmək imkanlarını əldə etməyə nail oldu. Və bu imkanlardan bacarıqla, cəsarətlə istifadə etməyə başladı. O, mərkəzin ona verdiyi tapşırıqların yerinə yetirilməsi üçün həyatı ilə risk edərək, mücahidlərin nəzarətində olan ərazilərdə düşərgələrdə olan mənbələrlə və banda rəhbərləri ilə görüşlər keçirir, müəyyən təlimatlar verirdi. Ratnikov Kabulda rəhbərliyin qəbulunda olarkən Elşad Şabanovu tərifləyərək, onun cəsurluğundan, bandit birləşmə- lərinin rəhbərləri ilə keçirdiyi müvəfəqiyyətli görüşlərdən da- nışdıqda rəhbərlik buna tam etiraz etmiş, müşavirin düşmən- lərin əllinə keçə biləcəyindən ehtiyat etmişdi. Lakin B.Ratnikov rəhbərliyə bildirmişdi ki, dəqiq məlumatlar əldə etmək, bandit

və terroristləri məhv etmək üçün bizim başqa yolumuz yoxdur. Bu hadisəni Ratnikov Kabuldan geri döndükdən sonra

Elşada çatdırdı və dedi ki, rəhbərlik səni "Qırmızı Ulduz" ordeninə təqdim edib. Mənə təqdimat yazdırdılar.

Düşmən düşərgələrində yaranan vəziyyət, silahlanma, hərbi - siyasi durum

barədə məlumatı E.Şabanova kəşfiyyat və tayfalarla iş xəttinin rəisi polkovnik Rəfiq Feyzulrəhman Xan verirdi. O, mücahidlərlə görüşə ya onunla, ya da 5-ci xəttin rəisi Rəfiq Mansur ilə gedirdi və görüş onların iştirakı ilə keçirilirdi.

Onların hər ikisi mücahidlərlə əlaqədə idilər. Belə ki, Fəyzulrəhman Xanın qaynatası Pakistan sərhədində tayfa başçısı - silahlı dəstələtin rəhbərlərindən biri idi. Mücahidlərin düşərgələrinə gedir, gəlir, rəhbərlikdə yaxın adamları var idi. Məlumatı isə Fəyzulrəhman Xanla görüşərək ona çatdırırdı. Məlumatlar təsdiq olunsa da Elşad, onunla bir neçə dəfə görüş- müş, tayfa başçısının hörmətini qazana bilmişdi. Fəyzulrəhman Xan və onun qaynatasının öz şəxsi maraqları var idi. Görüşdə, onlar, bunları müşavirdən gizlətmirdi, ondan müəyyən xahişlər edirdi. Şabanov bu xahişləri qrupun rəhbəri Ratnikova çatdırır-

dı. Mərkəzdən icazə aldıqdan sonra məsələlər öz həllini tapırdı. Ona görə tərəflər arasında problem yox idi.

Axır vaxtlar mənbələrdən elə məlumatlar daxil olurdu ki, Ratnikov əvvəl təəccüblənirdi. Sonra məlumat Feyzulrəhman Xan vasitəsi ilə yoxlanılırdı. Əvvəllər Mərkəz bu kəşfiyyat məlumatlarımıza şübhəylə yanaşırdı. Ratnikov Elşada deyirdi ki, “Edik, Mərkəz buna inanmır.” Elşad isə arxayınlıqla cavab verirdi ki, “Konstantinoviç, qoy, SSRİ-nin Pakistanda olan kəşfiyyatı vasitəsi ilə yoxlasınlar.” 1 həftədən sonra alınmış şifrə - teleqramı Ratnikov tələsik Elşada göstərdi: “Hər şey təsdiq olundu. Bizə təşəkkür edir, fəaliyyəti davam etdirməyi əmr edirlər.”

Kəşfiyyat məlumatlarının analizindən Elşad başa düşürdü ki, vəziyyət get - gedə gərginləşir, mücahidlər yeni - yeni qüvvələr toplayır, silahlar alır, qarşıdakı döyüşlərə hazırlaşırlar. 1986-cı ilin noyabr ayında bir aylıq məzuniyyətdən qayıdan Elşad Ratnikovla eyvanda oturub, ezamiyyəti necə keçirməsindən danışırdı. Bu vaxt raket atəşi başlayır. Onların qalxıb evə girməyi ilə raketin həmin oturduqları yerə düşməsi bir anda baş verir. Raket qəlpələri

divarları, eyvandakı masanı yerlə yeksan edir. İkinci raket onun yanına düşür, partlayır,

qapı - pəncərəni dağıdır.

Müşavirlər, Pastuxov, Parxotenko, Novikov zirzəmiyə endilər. Ratnikov isə Elşadla qalın çiy kərpicdən olan divarın arxasında daldalanırlar. Elşad ona deyir ki, "Konstantinoviç, mücahidlər raket atəşi altında hücuma keçə bilərlər." Hər ikisi AQS və DÇK-nın yerləşdirildiyi dama çıxırlar. Hər iki silahdan raket atəşi gələn istiqaməti atəşə tuturlar. Aşağıda XAD-ın və Sarandoyun ətrafında da atışma səsləri eşidilir. Bir azdan qa- ranlıq düşür, atəş səsləri kəsilir. Gözlənilmədən külək - "Əf- qani" başlayır, hər tərəf toza - dumana bürünür. Qaranlıqda heç nə görünmür. Atəş səsləri kəsilir. Külək yalquzaq kimi ulamağa başlayır.

Qış düşür. Soyuqlar başlayır, mücahidlərin isə fəallaşdığı, qüvvətləndikləri, yeni silah və sursatlarla təmin olunduqları, ABŞ, Pakistan başda olmaqla, Qərb ölkələrinin, hətta Çinin də onlara köməyi barədə məlumatlar daxil olurdu.

Əməliyyat qrupunun intensiv raket atəşinə tutulması, ərzaq qıtlığı, adi içməli suyun olmaması müşavirlərin fəaliy- yətini çətinləşdirirdi.

Bu şərait rabitəçi işləyən əsgər - sərhədçilər üçün daha dözülməz olurdu. Belə hallarda Elşad çörəyini axıra qədər yemir, xeyirxahlıq göstərərək yeməyinin yarısını ayıraraq, əsgərlərə verir, dəmir çaşkasına çay süzərək yemək otağını tərk edirdi.

Ərzaq Kabuldan gətirilirdi. Ora hər ay getmək mümkün olmurdu. Əməliyyat qrupunda əməkdaş az idi. Kabula gedib - gəlmək bir ay çəkirdi. Birbaşa heç bir nəqliyyat yox idi. Məktublar Qəndahara gəlirdi. Kabuldan qayıdan şəxs onu da gətirirdi. Bir də görürdün üç ay qabağa yazılmış məktubla on gün əvvəl yazılan məktub bir yerdə gəlir.

Yeni il - 1987-ci il gəlirdi. Dekabrın 31-i idi. Əməliyyat qrupunda Ratnikov, Şabanov, rabitəçilərin komandiri texniki işçi "şifrəçi" Mişa Barnyakov

və 3 əsgər qalmışdı. Novikov raket atəşlərinə dözməyərək böyrək ağrılarına tutuldu və Pastu- xovla birlikdə Kabula göndərildi. Porxomenko isə məzuniy-yətdə idi.

Əsgərlərdən serjant Qnofovski Şabanovdan xahiş etdi ki, "Yusifoviç, kağızdan Yeni il üçün oyuncaqlar düzəltmişik, amma yolka ağaçı yoxdur."

Elşad heç nə demədi. Ratnikovla razılaşdıqları kimi, 2 nəfər silahlı əfqanın müşayiəti ilə XAD-a, oradan da bazara getdi. Yeni il üçün ərzaq aldı. Sonra əyalətin qubernatoru Rəfiq Şükür Xanın yanına gəldi. (Qubernator DTK müşavirlərindən çəkinir, ehtiyat edirdi. Səbəbi isə Elşada Şabanova məlum idi.) Məqsədi əsgərlərin xahişini yerinə yetirmək idi. Qubernator onu iki silahlı döyüşçü ilə görənbə bir az özünü itirdi, sonra

"Xoş gəldin" deyə, onunla əfqan qaydası ilə üç dəfə öpüşdü. Hal - əhval tutandan sonra Elşad ona, Rəfiq Şükür, - dedi, sizin həyətinizdə olan, ingilislərin əkdiyi şam ağaclarından bir xırda budaq lazımdır. Qubernator bir az təəccübləndi, sonra əlavə etdi: "Bəlkə zarafat edirsiniz?" "Bu gecə Yeni il axşamıdır, əs- gərlər xahiş ediblər." Rəfiq Şükür sakitləşdi və adamlarına gös-təriş verdi ki, çay və şəkəri də maşına qoysunlar. Elşadın eti- razına baxmayaraq, həmin kisələri maşına qoydular.

Ratnikov və əsgərlər Elşadı gözləyirdilər. Onlar gözlərinə inana bilmirdilər: yolka budağı, üstəlik də çay və şəkər! Əsgər- lər sevinclə Elşadın üstünə atıldılar. Ratnikov yaxşı kotlet bişir- di. Qarmonda mahnılar çaldı və oxudu. Mişa Barnyakov isə "Lavanda" mahnısını oxuyub, ağladı. Beləcə, döyüşçülərimiz düşmən içərisində Yeni ili qarşıladılar.

İş və həyat öz axarı ilə gedirdi. Ratnikovun vaxtı tamam oldu. Sonralar Rusiyanın birinci prezidenti olan Boris Yeltsin Təhlükəsizlik Xidmətinin rəis müavini olmuş general - mayor Boris Konstantinoviç Rafukovla Elşad Şabanovun çox yaxşı münasibətləri yaranmışdı. E.Şabanov həm də əməliyyat qrupu Partiya Təşkilatının rəhbəri idi ("partkom"). Rafukov Əfqanıs- tanda

ikinci dəfə idi ki, xidmət edirdi. Birinci xidməti ezamiy- yətdə Qəndəhar və Kabul aeroportlarının Təhlükəsizlik Xid- mətinin rəisi olmuşdu.

Ratnikov yola hazırlaşdığı zaman Elşada deyir ki: "Şa- banov, mən Allahın köməyi ilə SSRİ-yə - Moskvaya qayıdıram. Sənə etibar edərək deyirəm, mən Mərkəzdə də rəhbərliyi məlu- matlandırmışam. Bu dözülməz şəraitdə qrupun fəaliyyət göstər- məyi mümkün deyil. Xalqın yerli hakimiyyətə inamı azdır, mücahidlərin ABŞ-ın və SSRİ-yə düşmən olan digər ölkələrin hesabına döyüş qabiliyyətləri artır, hərbi əməliyyatlar şiddət- lənməyə başlayır. Təəsüflə bildirirəm ki, qabaqda sizi daha təh- lükəli hadisələr gözləyir. Özün yaxşı bilirsən ki, biz düşmənin əhatəsindəyik. Köməksiz burdan çıxmağa imkanımız yoxdur." Sonra,o, balaca bir parçada olan bükülünü Elşada uzatdı. Elşad

xəbər alır ki, Boris, verdiyin nədir? Ratnikov cavab verir ki, bu, duadır. "Anam məni Əfqanıstana yola salanda bu duanı kəndimizdəki xristian kilsəsinin keşişinə yazdırmışdı ki, Tanrı həmişə məni qorusun. Şabanov, bu dua indiyə kimi məni qoruyub. Mən Vətənə qayıdıram. Baxmayaraq ki, sən xristian deyilsən, Allah şahiddir, mən səni öz millətimdən, özümdən ayırmıram. Sən hərəkətlərinlə nəyə qadir olduğunu göstərmi- sən. Ona görə, duaya ancaq sən layıqsən. Arzulayıram ki, bu dua indi də səni qorusun. Praktiki, ağır işləri ancaq sən görürsən. Mən sadəcə bu məlumatları mərkəzə çatdırmışam. Sən isə əməliyyatların təşkilatçısı və icraçısı olmusan." (Bu dua bugünədək E.Şabanovun muzeyində saxlanılır.)

Ratnikovu yola salan gün dəhşətli bir hadisə baş verdi. Onu Sovet vertolyotu ilə yola saldılar. Vertolyot havaya qal- xandan 2 - 3 dəqiqə keçmişdi ki, dəhşətli partlayış səsi eşidildi. Müşavirlər Rotnikovun olduğu vertolyotun vurulduğunu zənn etdilər. Lakin vertolyotlar havada idilər, sürətlərini artırıb, gözdən itdilər.

Elşad Şabanova belə bir məlumat daxil oldu: Zabol sakinlərindən birinin kustar üsulla düzəltdiyi uşaq arabası 5 - 10 uşaqla, düşmənlərin qoyduqları

minaya düşmüşdü. Araba qırıq - qırıq olmuş, uşaq cəsədləri isə ətrafa səpələnmişdi.

Bu terror aktl XAD-ın yaxınlığında, Zabolun mərkəzi, tozlu küçəsində baş vermişdi. Müşavirlərin də marşrutu bu yolla idi. Hər şey aydın idi...

Mücahidlər ABŞ-a və SSRİ-yə düşmən olan digər ölkələrə arxayın olub, get - gedə fəallaşır, azğınlaşıdılar. Onlar- la hesablaşmayan, dövlət meylli əhalinin hətta gecələr evlərinə girərək, bütün ailəni - qocalı - uşaqlı məhv edirdilər. İslam Hə- rəkatı Partiyasının silahlı dəstələri daha qəddar idilər. Əyalətdə fəaliyyət göstərən Hikmətyar Gülbəddinin Hezbe İslami (İslam Partiyası) və "Hərəkət-e İslam-i" partiyalarının silahlı dəstələri idi.

HİKMƏTYAR GÜLBƏDDİN

BİZ HEÇ VAXT İSLAMA ZİDD BAĞLANAN MÜQA- VİLƏLƏRİ TANIMAYACAĞIQ!

Hikmətyar Gülbəddin 1949-cu ildə Kunduz vilayətinin İmam Sahib yaşayış məntəqəsində anadan olmuşdu. Milliy- yətcə puştun idi. Ali təhsilini Kabul Universitetinin mühən- dislik fakültəsində almışdır. Burada o, "Müsəlman qardaşları" Partiyasının ideoloqlarının təsiri altına düşərək, hökumətə müxalif olan islam dərnəklərinin fəal üzvünə çevrilir. Mühən- dislik fakültəsində birinci olaraq ölkədə islam fundamentalist təşkilatı olan "Müsəlman qardaşları" təşkilatının əsasını qoyur. 1974 - 1976-cı illərdə Hikmətyar və yaxın ətrafı "Müsəl-

man gəncləri" təşkilatının ekstremist qanadında "Əfqanıstan İslam Partiyasını" (ƏİP) yaradırlar və Hikmətyar onun rəhbəri seçilir.

Universitetdə yaradılan "Müsəlman gəncləri" təşkilatının həmsədrlərindən olan Hikmətyar və B.Rəbbani sonradan rəqiblərə çevrilirlər. Hakimiyyət

uğrunda "İslam Cəmiyyəti" və Hikmətyarın rəhbərlik etdiyi "İslam Partiyası" silahlı dəstələri arasında fikir ayrılığı əmələ gəlir və qanlı toqquşmalara səbəb olaraq, uzun müddət davam edir.

Hikmətyar iradəli, məqsədinə çatmağa çalışan, siyasətçi, hiyləgər, intriqalar ustası, ölkədə avtoritar rejimi bərpa etməyə çalışırdı. Amansız, sərt insan kimi, barışmaz müxalifətin digər liderlərindən fərqli olaraq, heç vaxt Vətənin maraqları üçün vuruşduğunu demirdi. Özündən başqa heç bir kəsii tanımaq istəmirdi. Hikmətyar hakimiyyətə gəlmək üçün islam pərdəsi altında maskalanmışdı. Ölkənin ən böyük "narkobaronu", işbazlardan biri idi.

İki arvadı, yeddi övladı var idi.

Hikmətyarın partiyasına mənsub olan (ƏİP) (ƏİHP) barışmaz müxalifətin bandit dəstələri də onun kimi qəddar idilər.

Onlardan ən qəddarlarından biri köçəri puştun tayfala- rından olan bandbirləşmənin başçısı Molla Mədəd idi.

MART HADİSƏLƏRİ

Qış gəlib, nisbətən soyuqlar düşsə də, nə yağış, nə də qar yağmırdı. Baharda istilər düşməyə başladı. İkinci il idi ki, quraqlıq keçirdi. Bu isə əhalinin çətin vəziyyətini daha da çətinləşdirirdi. Aclıq və su qıtlığı əmələ gəlmişdi.

Bu vəziyyətdən istifadə edən müxalifətdə olan, hakimiy- yətə düşmən olan dini xadimlər - mollalar, mövləvilər, banda- nın qazıları əhaliyə təbliğ edirdilər ki, quraqlığın düşməsinin günahkarları Əfqanıstana girmiş Sovet Qoşunları - kafirlərdir. Torpağı onlardan təmizləmək hər bir müsəlmanın borcudur.

Sonra da yağışın yağması üçün qurbanlar kəsməyə başladılar.

1987-ci ilin əvvəllərində dövlət tərəfindən "Milli barışıq" adlı siyasəət yeridildi. Bu siyasət mücahidləri - barışmaz silahlı müxalifəti qan tökülməsinin qarşısını almaq, qardaş qırğınına son qoymaq məqsədi ilə barışığa, sülhə

səsləyirdi. Sovet Ordu- su və Əfqan Ordusu tərəfindən bu məqsədlə hərbi əməliyyatlar dayandırıldı, lakin bunlar hamısı artıq əbəs idi. Müharibə geniş vüsət almışdı. Qan tökülməkdə davam edirdi.

Elşad Şabanov Fəyzrəhman Xan vasitəsilə Pakistanda yerləşən mücahidlərin və terrorçuların hazırlıq düşərgələrindəki mötəbər mənbələrdən məlumat aldı ki, mücahidlər axıra qədər mübarizə apararaq, silahı yerə qoymayacaqlar. "Milli barışıq" siyasəti isə onlar üçün qarşıdakı böyük və qəti döyüşlərə sadəcə hazırlıqdır.

Məlumat mərkəzə göndərilir və bir müddət sonra Sovet Xarici Baş Kəşfiyyat İdarəsinin Pakistanda fəaliyyət göstərən kəşfiyyatı tərəfindən yoxlanılır və təsdiqlənir.

Həqiqətən, Böyük Yaradan xalqın, əhalinin quraqlıqdan, aclıq və susuzluqdan xilas olmaq üçün etdiyi duaları eşidir, qur- banlarını qəbul edir, gözlənilməz möcüzə baş verir – Ramazan ayında, Novruz bayramı ərəfində yağışlar başlayır.

Belə havada heç kəs mücahidlərin hücumunu gözləmirdi. Lakin E.Şabanov öz təcrübəsindən hiss edirdi ki bu sakitlik aldadıcıdır. Təxminən saat 11:00 radələrində mücahidlər əyalə- tin mərkəzini, XAD-ı, Sarandoyu, Dövlət İdarələrini, müşa- virlərin yaşayış evini 3 tərəfdən raket atəşinə tutdular və bu atəş altında hücuma keçdilər. Hər iki tərəfdən atışma başladı. Əməliyyat qurupunun yaşadığı binadan 50 - 60m aralı ərazi tikanlı məftillərlə əhatə olunmuş, piyada və tank əleyhinə mi- nalarla minalanmışdı. Mücahidlər atəş açaraq tikanlı məftillərə tərəf gəlirdilər. Şabanov yaranmış vəziyyət barədə zona mər- kəzinə - Qəndahara şifr - teleqram göndərmək barədə Mixail Bornyakova göstəriş verdi və binanın arxasındakı gizli yolla əsgərlər də götürüb qalaya qalxmağı, "Şeyx Məti" ziyarətgahı yaxınlığındakı, əvvəlcədən hazırladıqları lağım - sığınacağa düşməyi əmr etdi. Bornyakov onunla birlikdə düşmənlə vuruşmaq istədiyini bildirsə də, Elşad Şabanov buna qəti etiraz etdi. Əmri təcili

yerinə yetirməyi tapşırdı.

Müşavirlərdən Serqey Parxatenko məzuniyyətdə, Pastu- xov Kabulda idi. Mövqedə Elşad Şabanov, rabitə qrupunun komandiri kapitan Mixail Bornyakov, serjant Mixail Qnofovski və iki əsgər qalmışdı.

Müşavirlərin yaşayış evi 3 otaqdan ibarət keçmiş zabit evləri idi. Çiy kərpicdən tikilmiş, artıq vaxtı keçmiş, uçmaqda olan bu bina yaşamaq üçün də təhlükəli idi. Evin damı palçıqla suvanmışdı. Elşad Şabanov damın ətrafına hücumdan qorun- maq və daldalanıb atəş açmaq üçün torpaq dolu kisələr yığmışdı. AQS-i - avtomatik qranat atan silahı da damda yerləş-

dirmişdi. Silah müasir silah idi. Mücahidlər artıq bu silahın "ovuna çıxmışdılar." Sovet qoşunları bu silahı birinci dəfə olaraq Əfqanıstanda "sınaqdan keçirmişdilər."

Ev hündür təpənin üstündə yerləşirdi. Yuxarıda isə keçən əsrin əvvllərində inşa edilmiş, iri bir həyəti olan, divarları çiy kərpicdən hörülmüş qala var idi. Qala əvvəllər hərbi hissə, ağır cinayət törətmiş cinayətkarları saxlamaq üçün həbsxana kimi də istifadə olunmuşdu. Birinci mərtəbədə dustaqları saxlamaq üçün xüsusi kameralar, işgəncə vermək və edam etmək üçün xüsusi yerlər düzəldilmişdi. Qaranlıq otaqlarda insan sür - sümükləri qalırdı. Deyilənlərə görə kameralarda şüalanma var idi. Burada insan çox yaşamırmış.

Həyətdə bir neçə qədim ağac və balaca göl olan sahədə "Şeyx Məti" adlı ziyarətgah vardı. Həftənin cümə günləri yerli əhali ziyarətgaha qalxırdı. Qəribə də olsa, raket atəşi zamanı bir dənə də olsa, mərmi ziyarətgaha düşməmişdi.

Uzun illər əvvəl müşavirlərin yaşadıqları zabit evinə saxşı və ağacdan düzəldilmiş borularla həmin göldən su çəkmişdilər. Lakin havalar çox isti olanda göl quruyardı.

Əyalətin havası yay aylarında həddindən çox isti olurdu. Arabir "Əfqani" adlanan güclü külək əsəndə isə toz - torpaqdan ətraf görünməz olurdu.

Sonralar qalada ingilis hərbçiləri yaşayıblar. Onların dövründən zirzəmi

görkəmini almış miskin bir otaqda, buraya Şabanovla gələn Mişa Bornyakov kitabxana aşkarlamışdı. O biri otaqlar zülmət qaranlıq olub, qurd - quş, ilan və zəhərli əqrəb yuvasına çevrilmişdi. Bu qədim, möhtəşəm və kimsəsiz qaladan hər axşam heyvan ulaması və qəribə səsləri eşidilirdi.

Kitabxanada Mişa Bornyakov ingiliscə yazılmış nə isə bir qədim kitab da tapmışdı. İngiliscə bilən, dörd divar arasından çıxmayan rabitəçi əsgərlərin rəhbəri Mixail Bornyakov üçün qədim qalaya səyahət və kitabın tapılması "göydəndüşmə" idi. Elşadın isə ingiliscə öyrənməyə, bədii kitab oxumağa vaxtı yox idi. Mixail qalaya səyahətə, Elşad isə bu strateji qalanın hər

tərəfini döyüş məqsədləri ilə hesablamaq üçün gedirdi. O, bu məramına da nail oldu.

Əyalətdə və mərkəzi Kalatda elektrik işığı yox idi. Müşa- virlər şam və kerosin lampası yandırır, xörəyi kerosin plitədə - "Şmel"-də hazırlayırdılar. Ancaq radiostansiya batareyka ilə işləyirdi.

Əyalətin mərkəzindəki döyüşlərin gedişindən Elşadgilin məlumatı yox idi. XAD-ın yaxınlığında mərmi partlayışı səsləri eşidilir, atışma güclənirdi. Yağış isə elə hey yağır, ətraf palçığa, sulu gölməçələrə çevrilirdi. Mücahidlər artıq müşavirlərin yaşayış binasının 50 - 60 m yaxınlığındakı, tikanlı məftillərlə əhatə olunmuş, minalanmış sahəyə yaxınlaşmışdılar. Elşad Şa- banov Bornyakova əsgərlərlə təcili qalaya, sığınacağa qalxmaq əmri verdi və dama qalxaraq AQS-i atəşə hazırladı.

Mərmilər müşavirlərin yaşadıqları əraziyə düşüb partla- yırdı. Evin ərazisinə soxulmaq və evi ələ keçirmək, müşavirləri ya məhv etmək, ya da əsir götürmək məqsədini güdən düşmənlər tikanlı məftilləri keçərək, minalanmış sahəyə daxil olmuşdular. E.Şabanovun onları gözlənilməz qranatamyot atəşinə tutması və sahədəki minaların dalbadal partlaması mücahidləri çaşdırmışdı. Elşad isə atəşi kəsmir, AQS-dən atəş açdıqdan sonra yerini dəyişir, damda başqa bir yerə qoyduğu iri çaplı pulemyotdan düşməni atəşə tuturdu. O, hər şeyi ölçüb

- biçmişdi. Hər ehtimala qarşı düşmənlərin əlinə keçəcəyindən ehtiyat edərək, yarıyacan torpağa basdırılmış maşını – radios- tansiyanı və evin girəcəyini minalamağa imkan tapmışdı. Cibinə qoyduğu övladlarının şəkillərinin arxasına isə bu sözləri yazmışdı: "Mən axıra qədər düşmənlə vuruşdum, mövqeyi tərk etmədim. Düşmənə ölüm!" (Şəkil indiyədək saxlanılır)

Mücahidlər böyük itkilər versələr də, artıq tikanlı "Şəkil indiyədək saxlanılır" məftillərdən və minalanmış sahədən keçə- rək, binaya yaxınlaşırdılar. Onlar bir qədər özlərinə gəldikdən sonra yenidən binaya hücuma keçdilər.

Elşad bir anlığa atəşi kəsdi. Yanına yığdığı əl qum- baralarından ikisini özünü partlatmaq üçün hazırladı. Və qəti qərara gəldi: onu əsir götürmək istədikləri zaman əl qum- baralarını işə salmaq! O, atəşi daha da gücləndirdi. Qumbara- atanın mərmiləri qurtarmışdı, pulemyotda isə çox az mərmi qalmışdı.

Birdən elə bil onun qulaqlarına motor səsi gəldi. Əvvəlcə, o, buna inanmadı, lakin, birdən havada üç "Mİ - 24" "Kroko- dil" göründü. Onlar lap aşağı enərək, binsanın 30 - 40 metrli- yində olan düşmənə raket zərbələri endirməyə başladılar. Pilot- lar bu evi yaxşı tanıyırdılar və orada Sovet DTK-nın müşa- virlərinin yaşadıqlarını bilirdilər. Hər dəfə onlar Kalafın üstün- dən uçanda lap aşağı enirdilər. Əsgərlər dama qalxaraq, onlara əl yelləyirdilər.

Mərkəz şifr - teleqramı almışdı!

Elşad tələsik damdan aşağıya endi, binanın otaqlarından birində özünə atəş yeri seçdi. Ev təpə üstündə olduğundan, aşağı əl içi kimi görünürdü.

Elşadın AQS-dən açdığı atəş nəticəsində 5-6 düşmən cəsədi tikanlı məftillərin üzərinə sərilmişdi. Hava hücumunu gözləməyən mücahidlər məhv olur, qaçıb canlarını qurtarmağa çalışırdılar. Elşad evin pəncərəsindən qaçanları avtomat atəşinə tuturdu.

Aviasiyanın vurduğu raket zərbələrindən ətraf tüstülənir, torpaq göyə sovrulurdu.

Döyüşdən sonra gecə cəsədlər yaxınlıqdakı qəbristanlıqda yaşayan,

qəbirlərdəki təzə meyidləri yeyən, vəhşiləşmiş itlərin şikarına - "axşam yeməyinə" çevrildi. Cəsədlər itlər üçün "göydəndüşmə" idi. Rus məsəlində deyildiyi kimi: "İt it kimi də ölməlidir". Düşmənlər bu itlərdən vəhşilikdə, qəddarlıq və əzazillikdə heç seçilmirdilər. Onlara əsir düşmək ölümdən daha dəhşətli idi. Elşad bunları artıq öz gözləri ilə görmüşdü.

Döyüş bitdikdən sonra əsgərlərin hamısı Bornyakovla birlikdə idilər, ancaq serjant Qnofovski yox idi. Elşad onu

tavanı uçmuş otaqların birində, palçıq və lilli suyun içində tapdı. Ətrafda o qədər palçıq əmələ gəlmişdi ki, Mixail oradan çıxa bilmirdi. Elşad çətinliklə qurşağa qədər palçığın içinə batmış Mixaili çəkib - çıxarır.

Mücahidlərin Kalata və binaya - "nöqtə"-yə olan hücumu müvəffəqiyyətsizliklə başa çatır. Mücahidlər hava zərbələrin- dən əlavə, "nöqtəyə" olan hücum zamanı 15-a qədər döyüşçü itirirlər.

Bu hadisədən sonra Kabuldan əyalətə, XAD-ın sərənca- mına xüsusi əməliyyat batalyonu göndərilir. Onların bəziləri Əfqanıstanın şimalında - Bədəxşanda Elşadın müşavir olduğu batalyonun döyüşçüləri idilər. Tale indi onları cənubda – Za- bolda görüşdürdü: komandir Rəfiq Maqsud, Hafiz, komandirin bacısı oğlu, kəşfiyyat bölüyünün komandiri Salam və başqaları. Onlar müşavirlə mehribanlıqla görüşdülər, əfqan qaydası ilə üç dəfə öpüşdülər. Çay içərək ötən günləri yada saldılar. Müşavi- rin yaralandığını yadlarına salıb, səhhəti ilə maraqlandılar. Komandir dedi ki, müşavir, heç səhhətinizə fikir vermirsiniz. Elşad isə "Müharibəni qələbəylə başa vuraq, sonra səhhət özü düzələcək" - deyə cavab verdi.

Elşad döyüşdə soyuqqanlı, ciddi olsa da, yoldaşlıqda mehribanlığı, səmimiliyi hər hərəkətində göstərməyə çalışırdı. Müşavir yoldaşları, başda Rotnikov olmaqla, onun xarakterini bilərək, onunla şit zarafatlar etmirdilər. O, özü buna heç vaxt imkan verməzdi. Bəzən özündən asılı olmadan Elşadın elədiyi sərt hərəkətləri də onlar anlayışla qarşılayır və səbəblərini bilirdilər.

Elşadın öz səhhətinə laqeyd olduğunu Rotnikov və Parxatenko da deyirdilər. Kilometrlərlə piyada məsafə qət olunan hərbi əməliyyatlardan sonra dabanlarında, elə bil bıçaqla kəsilmiş kimi, çatlar əmələ gəlir, sonra qanla dolurdu. O da əfqanlar kimi corab geyinməz, çox vaxt əfqan paltarında, Pakistanın buraxdığı, mücahidləri geyindiyi rezin ləpiklərdə olardı. Yoldaşları onu danlayar, yaralarına məlhəm sürtməyə

məcbur edərdilər. Ancaq onun bir dərmanı vardı: hənə və mumiya.

MOLLA TAHİR MOLLA MƏDƏTƏ QARŞI

İstilər düşmüşdü. Səhər tezdən vertolyot motorunun səsi eşidildi. Sonra Sovet vertolyotu göründü. Onlardan biri XAD- dan aralı meydançaya endi. Pastuxovla Şabanov maşına oturaraq, XAD-a tələsdilər. XAD-ın həyətində divara yaxın iki çalmalı, gözü bağlı əfqan oturmuşdu. Başları üstündə əli silahlı Sovet əsgərləri durmuşdular.

Pastuxov və Şabanov xüsusi təyinatlılarla və Əfqan həmkarları ilə görüşdükdən sonra nə baş verdiyini xəbər aldılar. Sovet zabitlərindən biri, qrupun rəhbəri, kapitan rütbəli zabit dedi ki, bu iki nəfər əfqanı biz, karvan marşrutunda uçuş edərkən, Pakistana keçdikləri zaman saxlamışıq. Bizə verilmiş məlumata görə bunlardan biri bandanın rəhbəri, səhra komandiri, məşhur terrorçu Molla Tahir, yanındakı isə ban- danın qazısı və cəlladıdır. Gətirmişik ki, siz onların həqiqətən silahlı bandanın rəhbərləri olduqlarını təsdiqləyəsiniz. XAD-ın Şöbə Rəisi Rəfiq Mansur bunu təsdiq etmir. O, deyir ki, siz də Molla Tahiri görsəniz tanıyarsınız.

Molla Tahir həqiqətən nurzay puştun tayfalarından olan silahlı dəstənin rəhbəri idi. Onun müşavirlə gizli müqaviləsi vardı. Buna əsasən hər iki tərəf bu razılaşmanı yerinə yetirir və yetirməliydi. Molla Tahirin məhv olması böyük bir tayfanın, silahlı birləşmənin itirilməsi demək idi.

Elşad əfqanların gözlərini açdırdı, onları diqqətlə süzdü. Tahirlə müşavirin baxışları toqquşdu. Elşad tez üzünü zabitə çevirib, " Serqeyeviç, sizi aldadıblar, bu, Molla Tahir deyil, bu- nu başqa əfqanlar da təsdiq edə bilərlər" - dedi. Əfqanlar isə - əsas da puştunlar - satqınlığın nəilə nəticələnəcəyini yaxşı dərk edirdilər. Bir - birlərinə düşmən olsalar da, heç vaxt özlərininkini "şurəvi"-nin əlinə verməzdilər. Bu, bəlkə də bir

neçə il qabaq olardı, indi isə vaxt o vaxt deyildi. Vəziyyət silahlı barışmaz müxalifətin xeyrinə dəyişirdi.

Müxtəlif İslam Partiyalarına mənsub olan silahlı barışmaz müxalifət dəstələti bir - biri ilə ancaq öz şəxsi maraqları, keçmiş düşmənçilikləri, qan davaları əsasında və ərazi uğrunda vuruşurdular.

Elşad və sovet zabitlərindən biri saxlanılan mücahidlər- dən soruşurlar ki, sizin tutulduğunuz vaxt əsgərlər sizdən zorla heç nə almayıblar ki? Molla Tahir heç bir cavab vermir, yoldaşı isə ona puştun dilində: "Mənim saatımı açıblar" - deyir. Molla Tahir yoldaşına susmağı əmr edir və: "Sus, yoxsa bizi yenidən geri - sovet hərbi hissəsinə qaytararlar" - deyir. Xüsusi təyinat- ıların komandiri Elşaddan onların nə danışdığını soruşduqda, o, cavab verir ki, "Sağ olsunlar, heç kəs heç nə götürməyiblər, bizə zor tətbiq edilməyib." - deyir.

Xüsusi təyinatlılar həmin şəxsin Molla Tahir olmadığına təəssüf edərək, onları Təhlükəsizlik Orqanlarına (XAD-a) müşavirə təhvil verərək, vertolyotla tələsik bazalarına istiqamət götürürlər. Vertolyotlar gözdən itdikdən sonra Şabanov 5-ci şöbənin (banditizm və terrorizmlə mübarizə) rəisi Rəfiq Man- sura Molla Tahirgili xüsusi, gizli mənzilə aparmağı və ağsaq- qallarına onun burada olmağı barədə gizlicə bildirmək tapşırı- ğını verdi. Sonuncu bu tapşırığı lazımınca yerinə yetirir və Elşadla tayfa ağsaqqallarının görüşünü təşkil edir. Molla Tahi- rin də iştirak etdiyi bu görüşdə, Molla Tahir başda olmaqla, tayfa ağsaqqallarının rəhbəri qazı Hacı Molla Sobhanulla müşavirə bu yaxşılıq - Molla Tahirin və silahdaşının ölümdən xilas olunması üçün minnətdarlıqlarını

bildirirlər və müqavilə bağlayaraq, müşavirə və dövlətə müəyyən kömək göstərəcək- lərini vəd edirlər. Hacı xatirə olaraqMəkkədən gətirdiyi papağı, cinamazı və öz şəxsi təsbehini Elşad Şabanova bağışlayır və müşavirlə şəkil çəkdirir.(Bütün bunlar indiyədək qorunur).

Molla Tahir gətirilmiş təzə paltarları geyərək libasını dəyişir, axşam qaranlıq düşəndə onları Kalatdan bir az aralı,

Qəndəhar - Kabul şossesi yaxınlığında gözləyən silahlı dəstənin müşayiəti ilə yola düşürlər.

Elşadın əsas məqsədi Molla Tahirin köməyi ilə hakimiyyətə düşmən olan, günasız əhalini qanına qəltan edən, əyalətin mərkəzini və müşavirləri raket atəşinə məruz qoyan Molla Mədədi məhv etmək, silahlı quldur dəstəsini dağıtmaq idi. Molla Tahir və tayfa ağsaqqalları ilə danışıqlarda məlum oldu ki, köçəri təraki tayfasından olan İslam Hərəkatı Parti- yasına mənsub olan Molla Mədəd, Pakistana keçərkən "torpaq basdı" üçün haqq vermir, Molla Tahirlə olan müqaviləni yerinə yetirməkdən boyun qaçırır, onlara qarşı saymamazlıq göstərir. Bütün bu amillərdən bacarıqla istifadə edən Elşad Şaban Molla Tahirə tayfasının və nəzarətində olan ərazinin Sovet Qoşunları tərəfindən ola biləcək təhlükələrin həll olunacağını vəd edir və yerinə yetirir. Qəndəharda olan sovet aviasiyası ilə bu məsələlər mərkəzin köməyi ilə həll olunur. Mart ayının axırı - aprelin əvvəllərində XAD-ın əməliyyat batalyonu Elşad Şabanovun təşkilatçılığı və rəhbərliyi ilə Molla Tahirin silahlı dəstələri ilə birlikdə Molla Mədədin quldur dəstələrinə hücum edərək, onun əsas qüvvələrini məhv edir. Molla Mədəd isə döyüşdə öldürülür.Sonradan tayfanı qoruyub - saxlamaq istəyən ağsaqqallarla Molla Tahir arasında sülh sazişi bağlanır. Tayfa başçıları silahlı müqavimət göstərilməyəcəyinə söz verirlər.

Elşad anlayırdı ki, bu müqavilələr hamısı müvəqqətidir, Mücahidlər SSRİ-yə düşmən olan ölkələrə arxalanaraq, çox vaxt müqavileləri pozur, vədlərini yerinə yetirmirlər. Yeni - yeni silahlı birləşmələr əmələ gəlirdi.

Aprel ayında köməyə gəlmiş, heç bir döyüşə qatılmayan Sovet Xüsusi Təyinatlılarının batalyonu 7 - 8 nəfər itki ver- məklə, Kalatı gözlənilmədən tərk etdilər. Bu əsgərlər onların gəlişindən sonra daha da güclənmiş raket atəşinin qurbanı ol- dular.

Bu şəraitdə ancaq sovet çekistləri, DTK əməkdaşları fəaliyyətini davam etdirirdilər. Atəş altında yaşayaraq mərkəzin tapşırıqlarını yerinə yetirirdilər.

Əyalətdə sovet vətəndaşları, demək olar ki, qalmamışdı. "Milli barışıq" siyasəti baş tutmadı. Elşadın mücahidlərin

silahı əldən qoymayacaqları haqda məlumatları təsdiq edildi. Mücahidlər isə yeni silah alır, qəti döyüşlərə hazırlaşırdılar. Atəşkəsdən bəhrələnirdilər.

Bir dəfə E.Şabanov Pakistanda yerləşən mücahidlərin və terrorçuların hazırlıq mərkəzindən məlumat əldə edir ki, mücahidlərə ABŞ istehsalı olan yeni raket kompleksi verilmiş- dir. Həmin raket kompleksi "Stinqer" adlanır. Bu silah yeni, dəhşətli bir silah olaraq, uçuş aparatlarını - təyyarə və vertol- yotları vurmaq üçün istifadə ediləcəkdir.

Alınan bu məlumat mərkəzə verildi. Müəyyən dairələrin bu məlumatlara çox da əhəmiyyət vermədikləri hiss olunurdu. Bu ciddi kəşfiyyat məlumatlarının hansısa bir əyalətdən, cavan bir müşavirdən alınması onlara bir qədər inandırıcı görsən- mirdi. Lakin əslində belə deyidi. Döyüşlərdə artıq möhkəm- lənmiş, yaşı cavan olsa da, kəşfiyyat sahəsində və döyüş əmə- liyyatlarında bişmiş və kifayət qədər təcrübəyə malik olan Elşad Şabanov dəfələrlə "çiy" məlumatlar alsa da, onları yoxlamamış Kəşfiyyat Mərkəzinə verməmişdi.

80-ci ilin ortalarında Əfqanıstanda gedən hərbi əməliy- yatlar artıq daha da genişlənmiş, kəskin şəkil almışdı. Ölkə iki düşərgənin - sosializm və imperializm düşərgələrinin üz - üzə gəldikləri siyasi və hərbi döyüş poliqonuna çevrilmişdi.

Bir müddət sonra Zabol əyalətinin hava məkanında Qən- dahar - Kabil marşrutu ilə uçan "AN - 26" tipli sərnişin - yük təyyarəsi vuruldu. Bu, sovet istehsalı olan təyyarə Əfqanıstanın "Baxtar - Al - Vatan" aviakampaniyası

tərəfindən adi bir uçuşu yerinə yetirirdi. Təyyarənin ekipajı ilə birlikdə sərnişinlər - körpələr, uşaqlar, qadınlar - günahsız insanlar həlak oldu. Bu dağıdıcı, dəhşətli silah Pakistan istehsalı yox, ABŞ istehsalı

olan, üzərində "ABŞ-da istehsal olunmuşdur" ("Made in USA") sözləri olan silah idi.

Bu silahdan istifadə edən mücahidlər özlərini "İslamın, Allahın yolunda cihad edən" adlandırırdılar, amma İslamın qayda - qanunlarına zidd olaraq günahsız insanların - həm- vətənlərinin - müsəlmanların qanını tökürdülər.

ABŞ-ın məqsədi isə hakimiyyəti öz xeyirlərinə dəyişmək, Asiyada güclənmək, onu öz nəzarətində saxlamaq və Sover sərhədlərində möhkəmlənmək idi.

Elşad Şabanov mərkəzə verdiyi məlumatda həmçinin bildirir ki, "Stinqer" rakert kompleksi Mərkəzi Kəşfiyyat İda- rəsi və Böyük Britaniyanın kəşfiyyat orqanlarından "Mİ - 6" ilə birlikdə əfqan mücahidlərinə verilmişdir. O vaxtlar üçün tam məxfi xarakter daşıyan bu raket kompleksini MKİ-si rəh- bərliyi raketin Sovet kəşfiyyatının əlinə keçə biləcəyindən ehti- yat edirdi. Mərkəzdən göstəriş gəldi ki, bu raket kompleksini ələ keçirmək üçün səy göstərilsin.

1987-ci ilin may ayının əvvəllərində E.Şabanov Pakistan ərazisindı yerləşən mənbələrdən məlumat aldı ki, əyalətlərdən keçən 52-ci marşrutla mücahidlər iri tutumlu, Yaponiya isteh- salı olan "Tayota" markalı maşınlarla Əfqanıstanın şimalına silah aparacaqlar. Raket komplekslərindən biri də həmin ma- şınlardadır. Mücahidlər bu maşınları "Simurğ" adlandırırdılar.

Əməliyyat batalyonu Elşad Şabanovun tabeliyində idi. Batalyon mərkəzdən - Kabuldan göndərilmişdi. Döyüşçülər təcrübəli idilər. Bir çox hərbi əməliyyatlarda iştirak etmişdilər. Elşad 14 - 15 yaşlı gənclərdən hazırladığı kəşfiyyat - təxribat qrupunu da batalyona birləşdirdi. Qrup döyüşün nə olduğunu artıq bilirdi. Cavan olsalar da cəsarətli, qorxmaz idilər.

Elşad 5-ci xəttin - Terrorizm və Banditizmə qarşı Müba- rizə Şöbəsinin rəisi

Rəfiq Mansur və batalyon komandiri Rəfiq Maqsudla əməliyyat planını hazırladı. Bu döyüş əməliyyatına ümumi rəhbərlik Elşad Şabanova həvalə olundu. Gecə 3:00 radələrində maşın karvanını ələ keçirmək üçün pusqu quruldu.

Elşad birinci və axırıncı maşını vurmağı planlaşdırdı ki, müca- hidlər geri dönə bilməsinlər. Ətraf hündür olmayan təpəliklərdən ibarət idi.

Birinci maşını müşavir Elşad Şabanov qrantamyotla şəxsən özü vurdu. Axırıncı maşın batalyonun döyüşçüləri tərəfindən atəşə tutldu. Döyüş qızışmağa başladı. Mücahidlər pusquya düşsələr də güclü müqavimət göstərirdilər.

Döyüş günortaya qədər davam etdi. Düşmən xeyli itki verdi. Lakin 5 "Simurğ"dan 3-ü mühasirədən çıxa bildi. Həyatları ilə risk edən mücahidlər dərə - təpəyə baxmayaraq, maşınları 6 - 7 nəfərlə geri - Pakistan istiqamətinə qaytarmağa nail oldular. Onları təqib etmək üçün batalyonun texniki im- kanları yox idi, həm də ərazi bandit birləşmələrinin əlində idi.

Batalyondan da itki və yaralananlar oldu. Vurulmuş maşınlarda avtomat silahdan tutmuş, ağır silahlar, mərmilər də vardı. Həmçinin narkotik maddələr, partiya biletləri, onların istifadə olunması blankları, sovet qoşunlarının və Əfqanıstan hakimiyyətinin əleyhinə təbliğat kitabçaları və s., həmçinin Çin istehsalı olan "Yer - Yer" tipli raketlər. Həmin əməliyyatdan sonra məlum oldu ki, həmişə özünü neytral göstərən Çİn də mücahidlərə silah satırmış.

Bu əməliyyata qədər yerli Təhlükəsizlik orqanı döyüş əməliyyatı keçirməmişdi.

General - mayor Boris Ratnikov öz xatirələrində "Litera- turnaya Rossiya" 26.07.96 № 30 (1746) "Tixiy ujas" general Katnikova məqaləsində yazırdı: "Mücahidlər çox yaxşı bilir- dilər ki, bizim onlarla açıq döyüşə girməyə gücümüz çatmır. Bunu nəzərə alaraq, həftədə 2 dəfədən az olmayaraq, bizim "nöqtəmizi" 3 "Katyuşa"-dan 3 km yaxınlıqdan atəşə tuturdu- lar. Düşmənlər arada lap azğınlaşaraq, qurumuş çayı keçərək lap yaxınlaşır, bizə qrantamyotdan

atəş açırdılar.

Bizim əməliyyat qrupunun qarşısında duran məsələ bandit dəstələrinin hərəkətlərini əhalinin gözündən salmaq, müxtəlif partiyalardan olan bandit qruplaşmalar arasında silahlı toqquş-

malar təşkil etmək, düşmənlərin xalq hakimiyyətinin tərəfinə keçməsinə çalışmaqdan ibarət idi. Biz həmçinin, kəşfiyyatla da məşğul olurduq. Qrupun kəşfiyyat məlumatları əsasında aviasiya bandbirləşmələrinin yerləşdiyi əraziyə, rayonlara bom- ba zərvələri vuruldu. Bizim məlumatlarımızdan istifadə edən Sovet Xüsusi Təyinatlıları Pakistandan silah daşıyan maşın karvanlarını məhv etmək üçün döyüş əməliyyatları keçirdilər.”

Mərkəz əməliyyat qrupuna yaranmış şəraitə dözərək, verilmiş tapşırıqları yerinə yetirmək əmri vermişdi. “Milli barışıq” siyasəti, demək olar ki, tam iflasa uğramışdı.

Əfqanlarla şəxsi münasibəti yaxşı olan Elşadın hesabına XAD-ın rəhbərliyi, müşavirin etirazına baxmayaraq, həftədə bir neçə dəfə qrupa nahar yeməyi - hər gün bişirilən düyü və şorba (gah ət ilə, gah ətsiz) göndərirdilər.

Səhər yeməyi quru çörək ilə çaydan ibarət idi. Arada sovet hərbi əks - kəşfiyyatının zabitləri xidməti məsələləri həll etmək üçün gələndə özləri ilə bir neçə buxanka kərpic çörək gətirirdilər. Bu zaman əsgərlərin sevincinin həddi - hüdudu olmurdu. “Sovetskiy xleb” deyə həsrət çəkirdilər.

Müəyyən mənbələrdən məlumat daxil oldu ki, mücahidlər heç vaxt silahı yerə qoymayacaqlar. Heç bir müdafiəsi olmayan əlalinin yerli dövlətə inamı yox dərəcəsində idi. Günahsız in- sanlar, ailələr - qoca, qadın, körpə - qətlə yetirilirdi. Hamı düşmənin intiqamından ehtiyat edir, qorxurdu. Şabanov bütün məlumatları olduğu kimi Mərkəzə verirdi. Sovet kontingentinin burada olması artıq əbəs idi. Əfqan ordusunda fərarilik baş alıb gedirdi. Sovet Ordusunun əsgər və kiçik komanda heyətindən də mücahidlərin tərəfinə keçənlər az deyildi. Bu hərbçilər islamı qəbul edir və Sovet Ordusuna, dövlət qoşunlarına qarşı

mücadilənin silahlı dəstələrində vuruşurdular. Sonradan məlum oldu ki, dövlət əleyhinə çalışan qüvvələr daha çoxluq təşkil edir. Hakimiyyət ancaq özünü vilayət mərkəzlərində biruzə verirdi. Ərazinin çox hissəsi artıq mücahidlərin nəzarətində idi. Xarici müşavirlərin də fəaliyyəti artmışdı. Ərqəndal adlı

əraziyə nəzarət edən mücahidlərin rəhbəri Əbdüləziz Axundzadənin yanında fransız qadınlarından ibarət həkim və tibb personalı yaralı mücahidlərə tibbi yardım göstərir, onları dərman preparatları ilə təmin edirdilər.

Əfqanıstan beynəlxalq poliqona çevrilirdi.

"Stinqer" - "Şado - 52" əməliyyatından sonra, E,Şabanov və XAD-ın rəhbərliyi əyalətin əhalisinin müəyyən hissəsini toplayaraq, onların və ordunun bir hissəsinin qarşısında ələ keçirilmiş ("Stinqer"-dən başqa) həmin silahları və Çin isteh- salı olan raketləri xalqa nümayiş etdirdilər. Onların qarşısında çıxış edən XAD nümayəndələri mücahidlərin amansız hərə- kətlərindən danışaraq, əyani misallar gətirdilər. Müşavir Elşad Şabanov Sovet Dövlətinin Əfqanıstanda sülhün bərqərar olun- masını və qardaş qırğınına son qoyulmasını istədiyini, sülh olan halda Sovetlərin Əfqanıstanı tərk edəcəyini vurğuladı. O, fik- rini belə tamamladı ki, əfqan xalqı gələcək taleyini ancaq özü həll etməlidir.

Bu yığıncaq haqqında əvvəldən məlumat alan mücahidlər günahsız insanları raket atəşinə tutdular. Xeyli sayda hərbi və mülki şəxs həlak oldu. Mücahidlər bu əməliyyatdan sonra daha da quduzlaşdılar.

Daxil olan məlumatlara görə, mücahidlər "Stinqer" əmə- liyyatının əvəzini çıxmağa və müşavirə qarşı "müəyyən tədbir- lər görməyə" hazırlaşırdılar. Çünki, döyüşdə çoxlu itki vermiş- dilər, həm də "Stinqer" raketləri ələ keçirilmişdi. Bu əməliy- yatdan bir az keçmiş Sovet Ordusunun Xüsusi Təyinatlı dəstəsi əməliyyat aparır və yenə də mücahidlərin raketləri ələ keçirilir.

Bu raket kompleksi Sovet hərbi mütəxəssislərini çox maraqlandırırdı. Bu kompleksin çəkisi 12 - 15 kiloqram idi. Raketi istiliyə tərəf uçurdu."Stinqer" raket kompleksinin əsa- sında sovet mütəxəssisləri sonralar "Strela" kompleksini

yarat- dılar. Bu kompleksi əldə edənlərə Vətənin ən yüksək mükafatı təyin edilmişdi.

Elşad Şabanovun təqdimatı isə Kabulda qaldı. Əvəzinə "İgidliyə görə" medalları, "Qırmızı Ulduz" ordeni və sonralar, bir neçə ildən sonra "SSRİ Dövlət Təhlükəsizlik Orqanının Fəxri Əməkdaşı" döş nişanı ilə təltif olundu.

"Stinqer" əməliyyatından sonra məlumat daxil olur ki, onlar müşaviri aradan götürmək üçün plan hazırlayırlar.

İyun ayının axırlarında, axşam 20:00 radələrində Elşad Şabanov XAD-dan yaşayış yerinə qayıdırdı. Şabanovun müca- hidlər tərəfindən məhv edilməsi planı XAD-ıpn rəhbərliyinə və batalyon komandirinə məlum idi. Onun təhlükəsizliyini qoru- maq üçün batalyondan 2 nəfər gənc döyüşçü təyin edilir. Lakin bu axşam, o, qoruyucularından imtina edir və "UAZ" minik maşını ilə evə tək qayıdır.

Elşad Şabanov Əfqan mücahidlərinin "icad etdikləri" avtomat daraqları yerləşdirilmiş jileti axır vaxtlar üstündə gəzdirirdi. Həmçinin əl qumbaraları və "sevimli" bıçağını da. Bir il əvvəl isə bu yolla səhər XAD-a işə gedəndə onun üstündə ancaq "Makarov" tipli pistolet olardı. İndi isə vəziyyət tam dəyişilmişdi. Yol boş, ətraf sakitlik idi, kimsə gözə dəymirdi. Təkcə yaxınlıqdakı qəbiristanlıqda təzə qəbirləri eşib cəsədləri yeyən vəhşi itlərin ulaşması eşidilirdi. Müşavir qəbristanlığın yanından keçərək, yuxarıda, dağın döşündə olan yaşayış yerlərinə gedirdi. Bu zaman atəş səsləri eşidildi. Arxa şüşənin cingiltisi gəldi. Atılan güllələrdən biri sağ qolunun yanına, o birisi isə ön sərnişin oturacağına dəydi. Elşad vəziyyəti başa düşdü. Maşın köhnə olduğundan, yuxarı qalxmaq iqtidarında deyildi. O, maşına qaz verib, onu yandakı kiçik xəndəyə salma- ğa nail oldu və astaca qapını açıb, qabaq təkərlərin yanına uzan- dı.

İki nəfər saqqallı - çalmalı əfqan, birinin əlində əl pulem- yotu, digərində isə avtomat, maşına yaxınlaşırdılar. Bir az uzaqda isə üçüncüsü durmuşdu. Onun yanında ikitəkərli mo- tosikl vardı. (O, nə isə, Elşada tanış gəldi). Yaxınlaşanlar

maşını atəşə tutduqdan sonra sürücünün vurulduğunu zənn edirdilər.

Elşad gözlənilmədən, əlində hazır saxladığı avtomat silah- dan atəş açaraq, hər ikisini yerə sərdi. Üçüncüsü özünü moto- siklə yetirərək, aradan çıxmaq istədi. Atılan güllələr motosiklə dəydi. Sürücü idarəetməni itirdi və motosikl Qəndəhar - Kabul şossesindən çıxaraq, yolun aşağısına aşdı.

Atəş səsləri artıq çox da uzaqda olmayan batalyonda eşidilmişdi. Postda duran əsgərlər artıq xəbər vermişdilər. Batalyon komandiri və bir neçə döyüşçü özlərini hadisə yerinə yetirdilər. Motosikl düşən xəndəkdən isə səs - səmir çıxmırdı. Bir neçə döyüşçü ehtiyatla ora yaxınlaşdı. Motosikletçinin huşunu itirdiyini bildirdilər. Huşunu itirən əfqan 5-ci şöbənin rəisi Mansurun və müşavirin düşmənlə əlaqəsindən şübhəli olduqları "yaşılgöz" Nəsrulla idi.

Bu hadisə hamı üçün mücahidlər tərəfindən göndərilən bir siqnal idi. Bu hadisədən sonra 2 - 3 mühafizəçi müşaviri gözdən qoymurdu.

DÜŞMƏNLƏ ÜZ-ÜZƏ-SONUNCU DÖYÜŞ

"Nöqtə"-nin 3 kilometrliyində Pakistan istiqamətində yerləşən kənddən mücahidlər əyalət mərkəzini, müşavirlərin yaşayış "nöqtə"-sini atəşə tuturdular. Müşavir E.Şabanov eşitmişdi ki, kəndin yaxınlığında balaca bir göl var. Gölün adı "Qırx qız" idi. Əfsanəyə görə, su dalınca gələn qırx qız burada batmışdı.

Avqustun axırlarında batalyonun kəşfiyyat - təxribat qrupu tapşırığı yerinə yetirərək qayıtdıqları vaxt kəndin yaxın- lığında pusquya düşür. Bu qrupun komandiri Salam idi. O, batalyon komandirinin bacısı oğlu idi. 2 - 3 il birlikdə çox dö- yüşlərdə olmuşdular. Salam cəsarətli, qorxmaz döyüşçü idi. Lakin, bu döyüş onun axırıncı döyüşü olur. On nəfərlik

qrupdan ancaq bir nəfər yaralı döyüşçü alaqaranlıqdan istifadə edərək, pusqudan çıxa bilir.

Müşavir və batalyon komandiri 25 - 30 nəfər döyüşçü ilə iki maşına minib, hadisə yerinə tələsirlər. Hava çox isti idi. Əksər hallarda olduğu kimi, müşavir Elşad Şabanov yenə də əfqan paltarı geyinir, gözlərin çox tərləməsinin qarşısını almaq üçün, mücahidlərin etdiyi kimi, gözlərinə yaşıl sürmə çəkir. Əsgərlər həlak olmuş döyüşçülərin cəsədlərini maşınlara yığırlar. Döyüşçülərin də olduğu yük maşınla kəndə yaxınlaşar kən güclü partlayış baş verdi. Maşın minaya düşmüşdü. Kabinənin isti olduğu üçün maşının qapısının yanında dayaq üstündə dayanan Elşadı hava dalğası kənara tulladı. Ona elə gəldi ki, havada uçur. Qulaqları şiddətlə guruldayırdı. Hiss etmə qabiliyyətini itirmişdi. Burnundan və qulaqlarından axan qan bütün libasını bulamışdı. O, zorla qalxdı, ətrafa fikir vermədən silahını götürüb, irəliyə getdi. Güclə yeriyirdi. Burnundan, qulaqlarından axan qan kəsmək bilmirdi. Qulaqları eşitmirdi, hissiyyatını itirmişdi. Hara getdiyini belə dərk etmirdi. Ancaq su, çoxlu su içmək istəyirdi.

Bir az irəli getdikdən sonra gördü ki, qarşısında göl var, içərisində ördəklər üzür. Ona elə gəldi ki, buların hamısı yuxudur. Avtomat silahı suyun kənarına qoyub, özünü suya atdı. Təmiz olmayan, lilli sudan içməyə başladı. Bir az özünə gəldikdən sonra başa düşür ki, bu, yuxu deyil. Güclə suyun içindən qalxdı, çətinliklə yaxınlıqda olan kəndə girərək, çiy kərpic divara söykəndi. Avtomat silahı bir az kənara qoydu. Elşadın barmağında da o vaxtlar mücahidlərin taxdıqları üzükdən var idi.

Kənddə atəşə tutduqları kəşfiyyat - təxribat qrupuna - Salamgilə pusqu qurmuş düşmənlərin bir qrupu var imiş. Mina partlayan əraziyə daha sonra XAD - ın başqa əməkdaşları gəlir, meyidləri yığan zaman müşaviri - Elşad Şabanovu onların arasında tapmadıqlarından, axtarışa başlayırlar.

Balaca kənd uşaqları divara söykənmiş yaralı Elşadın başına toplaşırlar. Nə dediklərini Elşad eşitmir, başa düşə bil- mir. Çiynində avtomat olan iki saqqallı uşaqları oradan qovur- lar. Uşaqlar dağılışdıqdan sonra hər ikisi, biri bir neçə addım irəlidə, o biri isə bir az arxada, Elşada yaxınlaşmağa başlayırlar. Onu isə

qan aparır. Əvvəlcə onların nəzərləri müşavirin qana bulaşmış libasına tuşlanır və diqqətlə barmağındakı üzüyə baxırlar. Birdən, necə olursa, onlar şübhələnir, bir - birinə hirslə nə isə deyərək, Elşada hücum etmək istəyirlər. Elşad bir az aralıda olan avtomat silaha əlini çatdıra bilmir. Ani bir anda paltarının altında hazır saxladığı bıçağı qabaqdakı saqqallının boğazına soxur. O biri saqqallı geri çəkilir, avtomatı çiynindən endirir və Elşadı nişan alır. Bu vaxt saqqallı səndələyir və yerə yıxılır. Kəndə girən XAD-ın əməkdaşları və batalyonun döyüş- çüləri özlərini yetirərək, saqqallını arxadan güllələyirlər. Sonra isə dəhşətli atışma başlayır.

Elşadın həmişə kənardan seyr etdiyi bu kənd və göl "Qırx qız" imiş. Bu döyüş Elşad Şabanovun Əfqanıstan torpağında sonuncu döyüşü olur.

Hadisə 1987-ci ilin avqustun axırlarında, Elşadın Vətənə dönməyinə - sentyabr ayının 10-na bir az qalmış baş verir. Yaralanmış, bacısı oğlu igid Salamın ölümünə inanmayan batalyon komandiri döyüşə - hərbi əməliyyatlara həvəsi, marağı itirir. Batalyon bu hadisələrdən sonra döyüşə getmir.

10 günə yaxın ara həkimləri - əfqanların nəzarəti altında olan Elşad Şabanov sentyabrın əvvəlləri vertolyotla Xüsusi Təyinatlıların bazasına, gecə saat 12:00-də isə Qəndahara - zona müşavirlərinin yanına qayıdır. Burada onu - "Zabol reyncerini" cəbhə dostları - Aleksandr Filippov, Aleksandr Divayev, Andrey gözləyirdi. "Zabol reynceri" adını ona Aleksandr Filippov vermişdi.

Bir gün sonra, o, Kabula, oradan isə SSRİ-yə - Moskvaya yola düşür.

Rəsmi məlumatlara görə, baş verən hadisələrdən və Elşad Şabanovun SSRİ-yə qayıdışından sonra, əyalətdə vəziyyət daha da gərginləşir. Bacısı oğlunun və yaxın yoldaşlarının həlak olması batalyon komandirinə psixoloji təsir göstərir və şəxsi heyəti itirəcəyindən ehtiyat edərək, hərbi əməliyyatlardan imti- na edir. Vəziyyətin daha da gərgin olduğunu artıq hiss edən mərkəz Kalatda olan "nöqtə" -ni ləğv edir.

Əfqan əməliyyat batalyonunun komandiri Rəfiq Maqsud sağ qalmış şəxsi

heyətlə Kabula qayıdır.

Polkovnik Elşad Şabanov Əfqanıstanda öz beynəlmiləl borcunu yerinə yetirərək, 1987-ci ilin sentyabrında Vətənə - Azərbaycana qayıdır. 1989-cu ilin fevral ayının 15-də Sovet Ordusu Əfqanıstandan çıxarılır.

Polkovnik Elşad Şabanov öz xidməti vəzifəsini və ona verilən tapşırıqları həyatı ilə risk edərək, ləyaqətlə yerinə yetir- di. Onun xidmətləri aşaıdakı kimidir:

- Xidmət etdiyi müddətdə onun rəhbərliyi və sıravi döyüş- çü kimi iştirak etdiyi əməliyyatlar nəticəsində mücahidlərin dörd hərbi birləşməsi, rəhbərliyi və əsas döyüş qüvvələri məhv edilərək dağıdılır.
- Ona həvalə edilmiş tapşırığı yerinə yetirərək, dövlət or- qanlarına böyük miqdarda qiymətli daş - qaş - lazunit və nar- kotik maddə təhvil vermişdir.
- Əyalətin mərkəzinə düşmən tərəfindən edilən gecə və gündüz silahlı hücumlarlının qarşısının alınması əməliyyatla- rına həm rəhbərlik edir, həm də şəxsən özü döyüşür.
- Pakistan ərazisindən Əfqanıstana silah daşıyan maşın karvanını məhv edərək, Sovet hərbi texnikası mütəxəssislərini maraqlandıran, ABŞ istehsalı olan "Stinqer" raket kompleksini və digər yeni silah növlərini ələ keçirir və mərkəzə təqdim edərək, ABŞ başda olmaqla, Pakistanın və Qərb ölkələrinin- mücahidlərə - əks inqilabçılara göstərdikləri köməyi əyani sübut edir, Çinin də düşmənlərə "Yer - Yer" tipli raket satdıq- larını üzə çıxarır.

"Stinqer" raket kompleksi əsasında sonralar Sovet mütəxəssisləri anoloji "Strela" kompleksini hazırlayırlar.

- Elşad Şabanov Pakistan ərazisində mücahidlərin hazırlıq düşərgələrində gedən hərbi - siyasi durum və onların gələcək planları barədə kəşfiyyat məlumatları əldə edir və Mərkəzi məlumatlandırır. Düşərgədə bir neçə "kəskin əməliyyatın" keçirilməsinin təşkilatçısı və rəhbəri olur. Yüksək rütbəli

komandirləri və təlimatçıları fiziki məhv edir.

- Onun verdiyi kəşfiyyat məlumatlarına əsasənSovet aviasiyası mücahidlərin hərbi bazalarına və düşərgələrinə hava zərbələri endirir, Sovet Xüsusi Təyinatlıları Pakistandan Əfqa- nıstandakı silahlı müxalifətə yük daşıyan maşın karvanları ətrafında əməliyyat keçirir.
- Ümumilikdə, E.Şabanov Əfqanıstanda keçirdiyi əməliyyatlar zamanı, rəsmi rəqəmlərə görə, yüzlərlə düşmən məhv edilib.

Biz yazarları düşündürən bu dur ki, yüzlərlə Polkovnik Elşad Şabanov kimi xarici ölkə torpaqlarını canları ilə qanları ilə qoruyub sağlamlıqlarını itirən, beynəlmiləl borcunu ləyaqətlə yerinə yetirən, döyüşlərdə dəfələrlə ağır yaralansa da Azərbaycan övladları öz layiqli qəhrəman adlarını hələ də almayıblar. Axı, Elşad Şabanov döyüş əməliyyatları zamanı dəfələrlə ölümlə üz-üzə qalıb! Onun yalnız bir amalı olub - Vətənə layiqli xidmət etmək! 4 ildən artıq ailəsindən və əziz övladlarından ayrı qalan E.Şabanov, bizə belə gəlir ki, ən yüksək mükafata layiqdir və öz layiqli mükafatını mütləq alacaq!

KİTABDAKI HADİSƏLƏRİ ƏKS ETDİRƏN FOTOLAR

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**



Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**



Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**



Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

Tofiq Seyidzadə. **“Hər an ölümlə üzbəüz”**

С О Ю З
СОВЕТСКИХ
СОЦИАЛИ-
СТИЧЕСКИХ
РЕСПУБЛИК

ВОИНУ-ИНТЕРНАЦИОНАЛИСТУ

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА СССР
ЗА МУЖЕСТВО И ВОИНСКУЮ ДОБЛЕСТЬ, ПРОЯВЛЕННЫЕ
ПРИ ВЫПОЛНЕНИИ ИНТЕРНАЦИОНАЛЬНОГО ДОЛГА
В РЕСПУБЛИКЕ АФГАНИСТАН,

УКАЗОМ от 28 декабря 1988 г. НАГРАДИЛ

Шабанова Зелимхана Юсифа оглы

ГРАМОТОЙ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР
ВОИНУ-ИНТЕРНАЦИОНАЛИСТУ.

ПРЕДСЕДАТЕЛЬ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР

СЕКРЕТАРЬ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР

Москва, Кремль 28 декабря 1988 г.



Hörmətli Elşad müəllim!

Sizi 60-illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, Sizə can sağlığı, ailə səadəti və xoş əhval-ruhiyə arzulayırıq. Siz həyatınızın böyük hissəsini təhlükəzizlik organlarında xidmətə həsr etmisiniz. Müxtəlif vəzifələrdə çalışaraq özünüzü hazırlıqlı, bacarıqlı və məhsuldar əməliyyatçı kimi göstərmisiz. Siz Əfqanıstan müharibəsinin iştirakçısı olaraq, böyük cəsarət şücayət göstərmisiz, döyüşlərdə iştirak edərək yaralanmısız. Göstərdiyiniz iqidliyə görə "Təhlükəsizlik orqanlarının fəxri əməkdaşı" nişanı və "Qırmızı ulduz" ordeni ilə təltif edilmisiz. Milli təhlükəsizlik orqanlarında işləyərək Siz müxtəlif rəhbər vəzifələrdə işləyərək öz davranış, səmimilik və həmkarlara hörmətçil münasibətlə onların rəğbət və hörmətini qazanmısınız. Hazırda veteranlar birliyinin üzvü olaraq, onun işinə öz töhvənizi verirsiniz.

Bir daha Sizi həyatınızın əlamətdar günü 60-illik münasibəti ilə təbrik edir, can sağlığı, ailə xoşbəxtliyi və nailiyyətlər arzulayırıq.

Hörmətlə

polkovnik Maqsud Məmmədov
Azərbaycan Respublikası
Təhlükəsizlik Orqanlarının
Veteranlar Birliyinin sədri

Tofiq Seyidzadə. **"Hər an ölümlə üzbəüz"**

MÜNDƏRİCAT

ÖN SÖZ 3

HƏRAN ÖLÜMLƏ "ÜZBƏÜZ" 6

MÖVLƏVİ ƏMƏNULLA BANDASININ MƏHV EDİLMƏSİ 19

KUROMUN - MUNCAN ƏMƏLİYYATI..... 23

MÖVLƏVİ CƏLİL..... 31

KUNDUS-KABUL……...36

HİKMƏTYAR GÜLBƏDDİN 50

MART HADİSƏLƏRİ…….51

MOLLA TAHİR MOLLA MƏDƏTƏ QARŞI……..57

DÜŞMƏNLƏ ÜZ-ÜZƏ-SONUNCU DÖYÜŞ…….....66

Ünvan: Bakı şəh, Mətbuat pr-ti, 529-cu məh., Azərbaycan Nəşriyyatı, 9-cu mərtəbə.